United Nations
Educational, Scientific and
Cultural Organization

Bangkok Office
Asia and Pacific Regional Bureau
for Education

Müxtəlifliyin dəstəklənməsi: İnklüziv və öyrənmə üçün əlverişli mühitin yaradılması üzrə vəsait dəsti
Xüsusi kitabça 2

# Çoxuşaqlı siniflərdə tədris üçün məsləhətlər

## Müəllimlər üçün bələdçi



Inclusive
Learning-Friendly
Environments

Müxtəlifliyin dəstəklənməsi:
İnklüziv və öyrənmə üçün əlverişli mühitin yaradılması üzrə vəsait dəsti
Xüsusi kitabça 2

# Çoxuşaqlı siniflərdə tədris üçün praktiki məsləhətlər



Bu vəsait YUNESKO-nun rəsmi nəşri deyildir .
Nəşrdə ifadə edilmiş ideya və fikirlər onların müəlliflərinə məxsusdur və
YUNESKO-nun rəsmi mövqeyini əks etdirmir.

Bu vəsait **Avropa İttifaqının** maliyyə dəstəyi ilə **"Regional İnkişaf" İctimai Birliyi** tərəfindən icra olunan "Müəllimlərin inklüziv təhsil sahəsində bacarıqlarının artırılması" layihəsi çərçivəsində tərcümə edilmiş və nəşr olunmuşdur.

Bu vəsaitin azərbaycan versiyası onlayn istifadəyə açıqdır
(https://inkluzivtehsil.az/library).

Kitab **"İdeal Print"** mətbəəsində çap olunub.

# Ön söz

2000-ci ilin aprel ayında Seneqalda keçirilmiş Dünya Təhsil Forumunda qəbul edilmiş Dakar Fəaliyyət Çərçivəsi təhsili fundamental insan hüququ kimi təsdiq edir. Təhsil almaq hüququnun təmin olunmasının YUNESKO-nun əsas missiyalarından biri olduğunu nəzərə alaraq ona üzv olan ölkələr də bu hüququ təsdiq edərək onu tanıyır. Bu təhsil həm də keyfiyyətli olmalıdır. Belə ki, YUNESKO nəinki təhsil hüququnu, xüsusilə hamının keyfiyyətli təhsil almaq hüququnun olduğunu vurğulayır.

YUNESKO-nun ***Müxtəlifliyin dəstəklənməsi: İnklüziv və öyrənmə üçün əlverişli mühitin yaradılması üzrə nəşri (ILFE)*** məktəbləri və sinifləri daha inklüziv, öyrənmə üçün əlverişli və genderə həssas etmək üçün hərtərəfli və praktiki vasitələr təklif edir. ILFE vəsait dəstini əlavə istinad kimi zənginləşdirən bu bələdçi, əsas diqqəti çoxuşaqlı sinifdə tədris prosesi zamanı nəzərə alınmasına ehtiyac duyulan xüsusi məsələlər üzərində formalaşdırır. Sözügedən vəsaitin məqsədi müəllimlərə çoxuşaqlı siniflərdə təhsilin keyfiyyətinə xələl gətirmədən tədris prosesini necə aparmasına dair praktiki təlimatlar verməkdir.

Çoxuşaqlı siniflər adətən keyfiyyətli təhsilin təmin edilməsində əsas maneələrdən biri kimi qəbul edilir. Həqiqətən də bir çox elmi tədqiqatların nəticələri çoxuşaqlı siniflərin mənfi cəhətlərini nümayiş etdirərək keyfiyyətli təhsilin təmin edilməsində əsas amil kimi azuşaqlı sinifləri təbliğ edir. Lakin buna baxmayaraq çox vaxt keyfiyyətli təhsilin təmin edilməsi üçün yetəri sayda müəllim və siniflərin təchiz olunmasında birbaşa olaraq siyasi iradənin, müvafiq maliyyə dəstəyinin olmaması nəticəsində real olaraq bir çox ölkələrdə, məktəblərdə çoxuşaqlı siniflər üstünlük təşkil edir. Çoxuşaqlı siniflərdə tədrisin çətinliyinin qarşısını almaq məqsədilə vasitələrin təmin olunması məktəblərdə hamı üçün keyfiyyətli təhsilin (HÜT) təmin edilməsi istiqamətində mühüm addımlardan biridir.

Bu rəhbərlik çoxuşaqlı siniflərdə tədrislə əlaqəli bütün çətinliklərə universal həll təklif etmir. Bu vəsait, hər gün çoxuşaqlı siniflərdə tədris çətinlikləri ilə üzləşən müəllimlərə faydalı ola biləcək geniş çeşidli praktiki metod və təcrübələri təqdim etməyə çalışır. Əlavə olaraq, burada çoxuşaqlı sinfi

problem əvəzinə təlim-tədris prosesində resurs kimi görmək və ən yaxşı mümkün üsullarla sinfi idarə etmək üçün ipucları, tövsiyələr təmin edilir. Bu vəsait həmçinin perspektivi yalnız didaktik yanaşmalar üzərində fokuslanan tədrisdən daha çox uşaqyönümlü və öyrənmə üçün əlverişli mühiti vurğulayan metodlara istiqamətləndirir.

İnklüziv və öyrənmə üçün əlverişli mühitin yaradılması (ILFE) yalnız uşağa deyil, həm də müəllimlərə dostyana münasibəti özündə birləşdirir. Belə ki, keyfiyyətli təhsilin təmin edilməsi və təkmilləşdirilməsində müəllimlər yeganə ən vacib amildir. Şagirdləri gələcək üçün hazırlamaq öhdəliyinin böyük hissəsi onların üzərinə düşür. Məhz bu səbəbdən, YUNESKO-nun məqsədi sözügedən öhdəliyi yerinə yetirmək üçün müəllimləri mühüm alətlər, bacarıqlar və lazımi dəstəklə təmin etməkdir.

Ümid edirik ki, ILFE vəsait dəstinin digər kitabçalarında olduğu kimi müəllimlər gündəlik iş həyatında üzləşdikləri çətinlikləri, ehtiyacları qarşılamaq məqsədilə bu bələdçidə təqdim edilən məzmun və metodlardan faydalanacaqlar.

Bu bələdçi böyük kollektiv əməyin səyi nəticəsində ərsəyə gəlmişdir. Sənəd Mahidol Universitetinin Qidalanma İnstitutunda, eyni zamanda inklüziv təhsil və gender üzrə YUNESKO-da, eləcə də YUNİSEF-in Şərqi Asiya və Sakit Okean Regionu üzrə Ofisi (EAPRO) və "Uşaqların xilası" (Save the Children) təşkilatında uşaqlara yönəlik məktəblərin yaradılması üçün məsləhətçi qismində çalışan Corc Attiq tərəfindən yazılmış və ona düzəlişlər edilmişdir. O cümlədən, bu bələdçi dünyanın müxtəlif nöqtələrində yaşayan təhsil işçilərinin irad və təkliflərini özündə cəmləyir. YUNESKO Banqkok bu sənədin ərsəyə gəlməsində öz töhfəsini verən hər kəsə təşəkkürünü bildirir. Hər bir irad və təklif nəzərə alınaraq bu bələdçi, habelə ILFE vəsaitlər dəsti zənginləşdirilmişdir. YUNESKO-nun Asiya və Sakit Okean Regionu üzrə Təhsil Bürosunda proqram köməkçisi qismində çalışan Oçirxuyaq Qanxuyaq bu prosesi koordinasiya etmişdir.



Şeldon Şaffer
Direktor
YUNESKO Banqkok

# Mündəricat


**Ön söz** ........ III
**Giriş** ........ 1
"Çoxuşaqlı sinif" nədir? ........ 1
Perspektiv imkanlar ........ 2
Kitabçanın məzmunu ........ 3
**Çoxuşaqlı siniflərdə yaxşı təşkil olunmuş öyrənmə mühitinin yaradılması** ........ 5
Sinif mühiti ........ 5
Fiziki mühitin təşkili ........ 5
Psixo-sosial mühitin yaradılması ........ 8
**Çoxuşaqlı siniflərdə effektiv tədris** ........ 19
Yalnız nə öyrətmək deyil, həm də necə öyrətmək ........ 19
Dərslərin planlaşdırılması ........ 19
Tədris prosesinin başlanması ........ 24
Müxtəlif tədris üsullarından istifadə edilməsi ........ 27
Mühazirələr ........ 27
Aktiv öyrənmə strategiyaları ........ 30
Sinif tapşırıqları ........ 31
Qrup çalışmaları və birgə öyrənmənin məqsədləri, fəaliyyətləri və quruluşu ........ 33
Qiymətləndirmə ........ 36
Digər aktiv öyrənmə strategiyaları ........ 37
**Çoxuşaqlı siniflərdə təlim-tədris prosesində qiymətləndirmə** ........ 39
Rəy bildirməyin əhəmiyyəti ........ 39
Tapşırıqların verilməsi ........ 39
İmtahanların verilməsi ........ 42
Tapşırıqların və imtahanların qiymətləndirilməsi ........ 44
Tədris üzərində refleksiya ........ 45
**Çoxuşaqlı siniflərdə tədris üçün 20 məsləhət** ........ 48
**Əlavə məlumat əldə etmək üçün mənbələr** ........ 51
Nəşrlər ........ 51
İnternet resurslar ........ 54

“

Bu kitabça biliklərə yiyələnmə, məlumatın yayılması və kollektiv təcrübənin paylaşılması kimi fundamental imkanların aşılanması və təşviqindəki əvəzolunmaz roluna görə bütün dünyadakı müəllimlərin böyük töhfəsinə həsr olunur.

”

# Giriş

## "Çoxuşaqlı sinif" nədir?

Asiya qitəsindəki bir çox müəllimlər, bəlkə də siz özünüz çox sayda uşaq olan və bəzən hətta demək olar ki, bütün otağı dolduran şagirdlərlə dolu ibtidai siniflərlə çalışmaq məcburiyyəti ilə üzləşirsiz. Faktiki olaraq çoxuşaqlı sinfin "dəqiq ölçüsü" yoxdur. Bu adətən hər müəllimə düşən şagird sayı ilə müəyyən edilir (şagirdlərin müəllimə nisbəti əmsalı). Bəzi ölkələrdə hər müəllimə 25-30 şagirdin düşməsi çoxuşaqlı sinif hesab olunsa da, bəzilərində bu çox normal və hətta kifayət qədər kiçik sinif sayılır. Müəllimlərin nöqteyi-nəzərindən sinif müəllim onu "böyük" saydığı zaman böyük hesab olunur. Adətən 50-dən çox şagird olan sinif çoxuşaqlı sinif kimi nəzərə alındığı halda, normalda 25, ya daha az uşağa dərs keçən müəllim üçün 35 nəfərlik sinif böyük və dəfedilməz görünür.

Çoxuşaqlı siniflə üzləşdikdə əksəriyyətimiz bu qədər şagirdi öyrətmək şansımızın olmadığını düşünərək vaz keçmək hissinə məğlub oluruq. Problem ondan ibarətdir ki, biz öyrənmənin sinfin ölçüsündən asılı olduğunu düşünürük. Sinfin kiçik olduğu halda daha çox uşağın öyrənməsi fikri artıq ümumi düşüncə tərzində kök salıb. Lakin tədqiqatlar göstərir ki, sinfin ölçüsü şagirdlərin öyrənməsi ilə avtomatik olaraq əlaqədar olan bir məsələ deyil. Şagirdlər çoxuşaqlı siniflərdə də kiçik siniflərdə olduğu kimi öyrənə bilərlər. Sinfin ölçüsü deyil, tədrisin keyfiyyəti böyük əhəmiyyət kəsb edir. Sübutlar göstərir ki, şagirdlər sinfin ölçüsü ilə müqayisədə təhsilin keyfiyyətini daha çox vurğulayır.[1] Bundan əlavə, onlar sizin kimi və ya siz düşündüyünüz kimi çoxuşaqlı siniflərdə təhsil almalarına etiraz etməyə bilərlər.

*Mən uzun illər boyu yüzlərlə şagirdə dərs demişəm və hal-hazırki sinfimdə 80 şagird oxuyur. Əvvəlcə tədris kursuna dair mühazirə qeydləri, imtahan materialları və sınaq suallarından ibarət hazır dəstimin olması kimi rahatlıq mərhələsinə çatdığımı, vəziyyəti qabaqcadan müəyyən etmə qabiliyyətinə yiyələndiyimi düşünürdüm. Qəribədir ki, mən həm də özümü*

1. Large Classes: A Teaching Guide – Large Class Introduction. Center for Teaching Excellence, University of Maryland, 2005. www.cte.umd.edu/library/large/intro.html [accessed online on 10/7/2005]

*bezmiş və usanmış hiss edirdim. İlbəil eyni materialları tədris etməkdən bezmişdim və mühazirələrim elə sərt çərçivələr daxilində idi ki, məsələlərin həllini tapmaqda şagirdlərimi istiqamətləndirməkdən məmnun olduğumu göstərməyi bacarmırdım.*[2]

## Perspektiv imkanlar

Çoxuşaqlı siniflərdə dərs keçmək çətin olmaqla yanaşı tədris prosesinizi təkmilləşdirmək üçün çoxsaylı imkanlar, o cümlədən bu prosesi həm özünüz və həm də şagirdləriniz üçün daha maraqlı və məhsuldar etməyi təklif edir.

Çoxuşaqlı siniflərdə sinfinizi rahat, öyrənmə üçün əlverişli etmək məqsədilə işinizi yaradıcı şəkildə qurduğunuz, burada şagirdləri idarə etdiyiniz üçün sizin təşkilati və idarəetmə bacarıqlarınızı inkişaf etdirmək imkanınız var.

Habelə hər bir şagirdi onların sinifdəki fəaliyyəti və məktəbdənkənar həyatı daxil olmaqla fərdi şəkildə tanımaq üçün müxtəlif üsullardan istifadə etdiyiniz üçün çoxuşaqlı siniflər sizə şəxsiyyətlərarası münasibətlərin qurulması bacarığının təkmilləşdirilməsi imkanlarını təqdim edir. Eyni şəkildə, uşaqlar da sizi tanımağa şad olacaqlar.

Çoxuşaqlı siniflər həm də sizə tədris və təqdimat bacarıqlarınızı inkişaf etdirməyə kömək olacaq. Yuxarıdakı müəllimin qeyd etdiyi kimi çoxuşaqlı sinfə və ya hətta kiçik sinfə dərs demək bezdirici, cansıxıcı ola bilər. Burada çoxuşaqlı sinfin üstünlüyü ondan ibarətdir ki, sinifdə müxtəlif şagirdlər var və dərs prosesində müxtəlif öyrənmə üsulları istifadə edilir. Eləcə də siz çoxsaylı müxtəlif, fəal və əyləncəli tədris üsullarından istifadə edə bilərsiniz. Öyrənmə prosesinin bütün şagirdlər üçün mənalı olması məqsədilə çox şagirdlərinizin bilik, təcrübə və maraqları dərslərin və fəaliyyətlərin planlaşdırılması üçün dəyərli başlanğıc nöqtə ola bilər. Əlavə olaraq, şagirdlərin ailələrinin öyrənmə prosesinə cəlb edilməsi təlim resurslarının əlçatanlığını daha da artırır.

Habelə çoxuşaqlı siniflər üçün vacib görünən qısa cavablı imtahanlara arxalanmaq əvəzinə şagirdlərinizin materialı həqiqətən də öyrənib-öyrənməməsini bilmək məqsədilə müxtəlif yollar fikirləşib tapdığınıza görə qiy-

2. Dion, L. "But I Teach a Large Class" in: A Newsletter of the Center for Teaching Effectiveness. Spring 1996, University of Delaware. www.udel.edu/pbl/cte/spr96– bisc2.html [accessed online on 10/6/2005]

mətləndirmə bacarıqlarınız da təkmilləşəcək. Məsələn, şagirdlərinizə nə öyrəndikləri və öyrəndiklərinə dair hansı suallarının olmasına dair sinif və sinifdənkənar tapşırıqlar verə bilərsiniz. Şagirdlərinizin uğursuzluqlarını izləmək əvəzinə sizin də tədrisdə uğurunuz hesab olunan onların nailiyyətlərini izləyə bilərsiniz. Həmçinin şagirdlərinizi öyrənmə və dərsi nə dərəcədə mənimsədiyini qiymətləndirmə prosesinə cəlb edilməsinin sizin vaxtınıza qənaət etməsi, onların iş yükünün azaldılmasına töhfə verdiyini görəcəksiniz.

Şagirdləriniz də çoxuşaqlı sinifdən faydalana bilər. Sinifdə çoxlu şagird olduqda onlar arasında müxtəlif fikir və maraqlı həyat təcrübələrinin mübadiləsi baş verə bilər. Bu, şagirdləri həvəsləndirərək onları müzakirəyə cəlb edə və bir-birindən öyrənmələrini təşviq edə bilər. Şagirdlər qrup işləri zamanı öhdəlikləri bölüşmək, bir-birinə kömək etmək, o cümlədən müxtəlif insanlardan ibarət qrupda bir-birinə qulaq asmaq, səbrli olmaq və özlərini ifadə etmək  kimi bütün həyatları boyu onlara kömək olacaq bacarıqları qazana bilərlər. Sadalananlar işə müxtəliflik gətirməklə yanaşı işin gedişatını da sürətləndirir.

## Kitabçanın məzmunu

İnklüziv siniflərin yaradılması və idarə edilməsi[3], eləcə də bu siniflərdə pozitiv davranış qaydalarına riayət edilməsinə[4] dair artan sayda resurslar hazırlanır. Bu resursların əksəriyyətində sinfin ölçüsü tam olaraq nəzərə alınmır, belə ki, tövsiyələr bütün ölçülərdə olan siniflər üçün keçərlidir və onlara nəzər yetirməyinizi tövsiyə edirik.

Bu kitabça xüsusi olaraq çoxuşaqlı siniflərdə tədris prosesi zamanı yaranan çətinliklərin aradan qaldırılmasına kömək etmək məqsədilə hazırlanmışdır. Burada əsas diqqət bu cür sinifləri yaradıcı və əyləncəli üsullarla tədris etməyi öyrənmək zərurəti ilə üzləşən müəllimlərin təcrübələri üzərində cəmlənir. İrəlidə sözügedən müəllimlərin bir çoxundan sitatlar gətirilmiş və onların çoxuşaqlı siniflərdə tədris prosesi zamanı yaranan çətinliklərə sinə gərmək üçün verdiyi töhfələr, eləcə də gördükləri işləri yüksək qiymətləndiririk. Ümumilikdə, kitabçanın hər bir bölməsi praktiki tövsiyələri əks etdirir və aşağıda sadalananlar üçün strategiyalar təklif edir:

3. Bax: Booklets 4 and 5 of *Embracing Diversity: Toolkit for Creating Inclusive, Learning-Friendly Environments*. Bangkok: UNESCO, 2004. This document can be downloaded at: http://www2.unescobkk.org/elib/publications/032revised/ index.htm
4. Bax: *ILFE Specialized Booklet 1. Embracing Diversity: Tools for Positive Discipline in the Inclusive, Learning-Friendly Classroom – A Guide for Teachers and Teacher Educators.* Bangkok: UNESCO, 2006.

a) Sizin və şagirdlərinizin rahat fiziki və psixo-sosial mühitdə öyrənməyə hazır olması üçün ***nizamlı şəkildə idarə edilən sinifin yaradılması;***

b) Çoxuşaqlı siniflər üçün dərslərin planlanması və standart mühazirə formatına daha effektiv alternativin seçilməsi daxil olmaqla ***çoxuşaqlı siniflərdə tədrisin təşkili;***

c) Şagirdlərə öyrəndiklərini nümayiş etdirmək üçün yaxşı imkanların təmin edilməsi və tədris təcrübənizi əks etdirmək üçün çoxuşaqlı siniflərdə ***təlim və tədrisin qiymətləndirilməsi.***

Lütfən, unutmayın ki, çoxuşaqlı siniflərin tədrisi üçün **"ən yaxşı" üsul yoxdur**. Siz, tədris üsulunuz, şagirdlərinizin xarakteristikası, o cümlədən dərsləriniz, tədris proqramının məqsəd və vəzifələrinə əsaslanaraq özünüz üçün ən yaxşı yanaşmanı hazırlamalısınız. Lakin bəzi fikirlər çoxlarınız üçün münasibdir və bu kitabçada tədris üsulunuza uyğunlaşdıra biləcəyiniz bir sıra ideyalarla tanış olacaqsınız. Onların hansının sizə daha uyğun olduğuna qərar verərək sınaqdan keçirin və ya ümidverici görünənləri öz vəziyyətinizə uyğunlaşdırın. Bəzi təkliflər çox sadə və aşkar görünsə də onların əksəriyyəti yaxşı tədris prosesinin təşkili üçün real prinsiplərdir. Belə ki, onlar problemlərin daha şişirdilmiş görünə biləcəyi çoxuşaqlı siniflərdə daha da vacib xarakter alır. Çoxuşaqlı siniflərə ilk dəfə dərs keçirsinizsə və ya sadəcə olaraq yeni yanaşmanı yoxlamaq istəyirsinizsə burada qeyd olunan müddəaları nəzərdən keçirərək tətbiq etmək yaxşı fikirdir. Ən əsası tərəddüd etməyin! Yaradıcı olun! Bu sizin tədris prosesinizi daha əyləncəli və maraqlı edəcək.

# Çoxuşaqlı siniflərdə yaxşı təşkil olunmuş öyrənmə mühitinin yaradılması

## Sinif Mühiti

Demək olar ki, əksəriyyətimizin nə qədər şagirdə dərs verməli olduğumuz haqqında heç bir fikri yoxdur. Amma sinif mühitini əlverişli vəziyyətə gətirmək üçün bu vacibdir.

Bu çox əhəmiyyətlidir, çünki bu mühit uşaqların öyrənmə bacarıqlarına təsir edir. Gözlərinizi yumun və 60 nəfərlik ya da daha böyük bir sinfə yeni müəllim kimi təyin olunduğunuzu düşünün. İlkin şokdan sonra, özünüzə hansı sualları verərsiz? Yəqin ki, ağlınıza gələn ilk sual "Mən onları necə idarə edəcəm?" olacaq. Əslində, bu sual çoxuşaqlı siniflərdə işləməyin ən vacib məqamlarından birini önə çıxarır. Burda nəzərdə tutulan sinif otağındakı mühitin həm öyrənmək, həm də öyrətmək üçün necə ən uyğun formada təşkil olunmasıdır. Sinif otağı mühiti dedikdə həm fiziki mühit - bura dərslər üçün öyrənmə resursları daxildir, həm də psixo-sosioloji mühit nəzərdə tutulur. Psixo-sosioloji mühit dedikdə isə izdiham hissini azaldaraq və yalnış davranışlarla səmərəli mübarizə apararaq öyrənməni təşviq edən üsullar nəzərdə tutulur.

Yaxşı təşkil olunmuş fiziki və psixo-sosioloji mühit yaratma bacarığınız sakit və işlək bir siniflə xaos içində olan bir sinif arasında ciddi fərqi nümayiş etdirə bilər.

## Fiziki mühitin təşkili

İdeal şəraitdə bir sinif otağı parlaq, təmiz, yaxşı təchiz olunmuş, hər bir şagirdin rahatlığına uyğun olmalıdır. Şagirdlərin təklikdə və ya qrup halında otaqda rahatlıqla gəzmələri və işləmələri üçün şərait olmalıdır. Aktiv öyrənmə mühiti yaratmaq və şagirdlərin dərsdə iştirakını artırmaq üçün oturacaqlar şagirdlərin bir-birini və müəllimi görə biləcəkləri formada qurulmalıdır.

Təəssüf ki, çox az sayda sinif otağı, xüsusilə də çoxuşaqlı siniflər öyrənmə üçün ideal şəraitdədir. Adətən belə hallarda yer məhdud olur.

Əksər hallarda, isti, basırıq, səs-küylü, çox şagirdin olduğu kiçik siniflər siz və şagirdlərinizə pis öyrənmə mühiti təklif edir.

Buna görə də ilkin mərhələdə bütün yaradıcılığınızı və planlaşdırma qabiliyyətinizi öyrənmə üçün əlverişli bir sinif otağı yaratmağa yönəltməlisiz. İlkin mərhələdə çəkəcəyiniz bu zəhmət sonra işinizi asanlaşdıracaq və daha səmərəli hala gətirəcək.

Sinifdəki fiziki mühitlə əlaqəli aşağıda sadalanan ideyaları bütün şagirdlərinizi necə yerləşdirməyi planlaşdırdığınızda və çox vaxt çoxuşaqlı siniflərdə rast gəlinən izdiham, qarışıqlıq və məyusluq hislərini azaltmağı düşündüyünüzdə nəzərə ala bilərsiniz.[5]

**Sinif otağının sahəsini maksimum artırın.** Dərs zamanı əksəriyyətimiz sinfə nəzarət etməkdə çətinlik çəkirik. Sinif otağı geniş olduqda şagirdləri öz görmə bucağımıza uyğun əyləşdirə bilərik və bu sinfi daha rahat idarə etməyə şərait yaradar.

Bir sinif otağının təşkili çevik və ya çətin ola bilər, amma əsas məsələ tələbələri bir qrup halına gətirən, onları rahatlaşdıran, müzakirə üçün əlverişli olan fiziki bir məkan yaratmaqdır.

Çoxuşaqlı sinif otağının parametrlərində yer əksər hallarda lüksdür. Öyrənmə sahəsini artırmaq, həddindən artıq yüklənmə hissini azaltmaq və hərəkəti asanlaşdırmaq üçün lazımsız mebellərdən azad olmağı düşünün. Əgər sizin böyük bir lövhəyə ehtiyacınız yoxdursa, otaq üçün kiçik lövhə istəyin. Masa və stullar əvəzinə şagirdlərin oturması üçün döşək və ya kilim istifadə edin. Belə otaqlarda şagirdlər bir-birini rahat görə və özlərini bir qrupun üzvü kimi hiss edə bilirlər. Banqladeşdə bəzi sinif otaqlarında masa və stul çatışmazlığı üstünlüyə çevrilib. Geniş öyrənmə mühiti, təmiz, yerli kilim və döşəklərin olması imkan yaradır ki, otağı istədiyin anda elmi araşdırma yerindən teatr səhnəsinə çevirəsən. Bu, həm də digər dərslərə manеə törətmədən qrupları asanlıqla təkrar-təkrar formalaşdırmağa şərait yaradır. Bundan əlavə uşaqlara əlçatan məsafədə lövhələr olur ki, onlar qrup şəklində oturub, bu lövhələrdən istifadə edərək planlaşdırma həyata keçirə, müzakirələr apara və problemləri həll edə bilsinlər.[6]

5. Bax, məsələn: ILFE Specialized Booklet 1. Embracing Diversity: Tools for Positive Discipline in the Inclusive, Learning-Friendly Classroom – A Guide for Teachers and Teacher Educators. Bangkok: UNESCO, 2006.
6. Booklet 5: Managing Inclusive, Learning-Friendly Classrooms. Embracing Diversity: Toolkit for Creating Inclusive, Learning-Friendly Environments. Bangkok: UNESCO, 2004.

Basırıq siniflərdə çox yer tutmaması üçün kitabları, təlimat materiallarını (təbaşir, xətkeş, kağız, boya və qayçı kimi) və tədris vasitələrini (portativ lövhələr, molbertlər, qrafika kağızları və iş masaları kimi) asanlıqla əlçatan yerdə saxlayın. Onları sinif otağından kənarda, bəlkə kölgəli bir ağacın altında da qoymaq olar. Elə yer seçilməlidir ki, şagirdlər onlardan asanlıqla istifadə edə bilsin. Mümkündürsə, dərs vaxtı istifadə etmədiyiniz dərs vəsaitlərini və digər əşyaları müəllimlər otağında və ya sinif xaricində başqa bir təhlükəsiz yerdə saxlayın.

**Hərəkəti asanlaşdırın.** Şagirdlərin sinfə giriş və çıxışlarını ən yaxşı formada planlaşdırın; Məsələn, sinif otağına birinci arxada oturan şagirdlər, ardınca ortada oturanlar, sonda isə öndə oturanlar daxil ola bilərlər. Sinifdən çıxmaq üçün isə bu strategiyanın əksi istifadə edilə bilər. Sinif quruluşunu tədris olunan şeylərdən asılı olaraq necə dəyişəcəyinizi əvvəlcədən planlaşdırın (məsələn, bütöv bir sinif quruluşundan rəsm və ya təbiətşünaslıq dərsi üçün kiçik qruplara keçmək kimi). Gündəlik işlərin necə aparılacağını, məsələn, yazılı tapşırıqların verilməsini və qiymətləndirmədən sonra tələbələrə necə geri təhvil verilməsini planlaşdırın. Şagirdlərinizin fərdi ehtiyaclarını (məsələn, qələmlərini itiləməsi və ya öyrənmək üçün vəsait əldə etmələri) qarşılamaq üçün də planlar qurun.

**Sinif xaricindəki sahədən istifadə edin.** Məktəbin ərazisi öyrənmək üçün zəngin resurs və izdihamlı sinif otaqları üçün əyləncəli bir köməkçi ola bilər. Bu yerlər şagirdlərin həm sosial, həm də idrak bacarıqlarını inkişaf etdirmək və əməkdaşlıq, sahiblik, mənsubiyyət, hörmət, məsuliyyət haqqında vacib dərsləri öyrənmək üçün əhəmiyyətlidir.[7] Məktəbinizə baxın, öyrənmə üçün yaxşı sahələri müəyyən edin və onları dərs planlarınıza daxil edin. Məsələn, məktəb ərazilərinin fərqli sahələri, sinifdə bir mövzu ilə əlaqədar öyrənilənləri dəstəkləmək üçün fəaliyyət mərkəzi kimi istifadə edilə bilər - həndəsi fiqurlar haqqında məlumat əldə edərkən şagirdlər məktəbi araşdıra və mümkün qədər çox həndəsi formalı cisimləri müəyyən edə bilərlər. Sonra bir ağacın altında oturub xatırlaya bildikləri qədər yaza bilərlər. Onların inkişafını müşahidə edin! Dərs bitməzdən əvvəl nəticələri təqdim etmək üçün hamını sinifdə və ya sinif xaricində bir yerə toplayın.

**Şagirdlərin işlərini yaradıcı formada təqdim edin.** Şagirdlərin işlərini nümayiş etdirmək üçün yer lazımdır. Şagirdlərin işləri boş yer tutan lövhələr və masalar əvəzinə sinif divarına asıla bilər, ya da hamının görməsi

7. Malone, K. and Tranter, P. "Children's Environmental Learning and the Use, Design and Management of Schoolgrounds," Children, Youth and Environments, Vol. 13, No. 2, 2003.

üçün sinif qapısından kənarda nümayiş etdirilə bilər. Sancaq, yapışqan lent və ya hətta kiçik iynələrdən istifadə edərək şagirdlərin işlərini simlərdən və ya ipdən asmaq olar. Otağı şagirdlərin işləri ilə bəzəmək otağın cəlbediciliyini artırmağa və içərisində çox sayda şagird olmasına baxmayaraq içəri girənlərdə xoş təəssürat yaratmağa kömək edəcəkdir.

**Şagirdlərinizi cəlb edin.** Şagirdlər sinif otağının fiziki məkanını idarə etməkdə yardımçı ola bilərlər. Bu həm də şagirdlərdə məsuliyyət hissini artırmağa kömək edir. Şagirdlər öz işlərini guşələrdən asa, bülleten lövhələri yarada və hər dərsin sonunda təlimat materiallarını yerləşdirə bilərlər. Şagirdlər yer probleminin həllində də köməkçi ola bilərlər. Oturma yeri ilə bağlı problem yarandıqda və yerlə bağlı digər problemlər olduqda onlardan həll yolu tapmaq üçün kömək istəyin.

Sizin rahatlıq anlayışınız ilə şagirdlərinizinki eyni olmaya bilər. Buna görə də sinif otağını ilin əvvəlindən hazır edin və daha sonra şagirdlərinizdən rahat olub olmadığını soruşun. Daha yaxşısı budur ki, onları qruplara ayırın və hər qrupdan otağın ətrafını, içindəki məkanları nəzərdən keçirmələrini, sonra otağın necə təşkil olunmasını istədiklərinə dair rəsm çəkmələrini xahiş edin. Hər şagirdi nəzərə alaraq onlar üçün "fərdi" sinif tərtib edirmiş kimi, rəsmlərdən gələn fikirlərdən istifadə edin. Bir və ya iki həftə yeni quruluşu sınayın və şagirdlərinizdən bunun rahat olub-olmadığını soruşun. Əgər onlar daha yaxşısının ola biləcəyini düşünürlərsə, yenidən dəyişdirin. Bundan başqa, sinif otağında oturmağın şagirdlər üçün sıxıcı olduğunu hiss edirsinizsə, bu halda da quruluşu yenidən dəyişmək haqda düşünün.

## Psixo-sosial mühitin yaradılması

**Sinif otağı tez-tez "öyrənmə icması" adlandırılır.** Bura elə bir yerdir ki, siz və şagirdləriniz müntəzəm olaraq burda vaxt keçirirsiz. Demək olar ki, burada hamı bir-birini tanıyır, bərabər işləyir və dünya haqda yeni şeylər öyrənirlər.

Çoxuşaqlı siniflərdə şagirdlərə marağınızı, əlçatanlığınızı göstərən, eləcə də şagirdlərinizi sizin haqqınızda öyrənməyə və təlim prosesində iştirak etməyə təşviq edən bir cəmiyyət hissi yaratmaq çox vacibdir. Məqsəd sizin və tələbələrinizin bir-birinizi daha yaxşı başa düşməyinizə kömək etməkdir. İcma hissini və onun müsbət psixoloji sosial mühitini yaratmaq, şagirdlərinizi öyrənməyə, aktiv olmağa, hətta izdihamlı siniflərdə belə

bacarıqlarının ən yaxşısını öyrənmək üçün sərf etməyə şərait yaradır. Üstəlik, şagirdlərə dəyər hissini aşılamaq və müəllimin kömək etməyə həvəsli olduğunu göstərmək onların öyrənmə prosesinə müsbət mənada çox yaxşı təsir edir.

Aşağıda sinif icmalarınızda müsbət psixoloji sosial mühit yaratmaq və ya sizin və şagirdlərinizin artıq bildiyiniz şeyləri daha da yaxşılaşdırmaq üçün bəzi təkliflər əks olunmuşdur:

**Böyük sinfi kiçik kimi hiss edin.** Bir çox müəllim belə davranaraq çoxuşaqlı siniflərdə də kiçik sinif ab-havası yarada bilir. Sual verən şagirdə yaxınlaşmaq, material paylamağa kömək etmək və s. bu tip addımlar sinif daxilində fiziki və sosial məsafəni azaldır. Unutmayın: şagirdlərə sinfin çoxuşaqlı olması və həcmi sizin qədər təsir etməyə bilər. Fərdi yanaşma ilə şagirdlərdə daha kiçik sinif təəssüratı yaratmaq olar. Məsələn, sinif daxilində gəzişin, şagirdlərin dərsə gəlməsində maraqlı olduğunuzu hiss etdirin, onlara qayğı göstərin. Şagirdlərlə danışmaq üçün dərsə tez gəlin. Onlara işlərində kömək edə biləcək insanlar ilə əlaqə qurmağa kömək edin. Şagirdlərə şəxsi maraqları olan, sinifdən kənar həyatları olan şəxslər kimi yanaşın.[8]

**Sinfin ölçüsünü kiçildin.** Yeni məktəb ilinin ilk iki və ya üç günü bəzi müəllimlər sinfin ölçüsünü bilərəkdən azaldırlar. Sinfi yarıya bölürlər (və ya hətta üçdə birə), yarısı səhər məktəbə gəlir, digər yarısı günortadan sonra gəlir. Bu müddət ərzində şagirdləri tanımaq üçün onların adlarının öyrənilməsi, hər birinin ailə vəziyyəti və maraqları haqqında məlumatın toplanması, həmçinin hər bir şagirdin bilik və bacarıqlarının diaqnostik testi (aşağıda müzakirə olunur) və ya sadə anketlər vasitəsilə qiymətləndirməni həyata keçirirlər.

**Şagirdlərinizi tanıyın.** Simaları adlarla yadda saxlayın. Çoxuşaqlı siniflərdə adları simaları yadda saxlamaq vahiməli görünsə də, şagirdlərinizin adlarını öyrənmək, onların iştirakını təşviq etmək və rahat sinif otağının yaradılması üçün ilk addımdır. Bu şagirdlərə fərdi olaraq onlarla maraqlandığınızı göstərir. Xoşbəxtlikdən, şagirdlərin adlarını öyrənmək və onları tanımaq üçün bir çox sadə yol var:

---

8. Intentional Learning: A Process for Learning to Learn. American Accounting Association. http://aaahq.org/AECC/intent/4_4.htm

**Oturma sxemini hazırlayın**. Şagirdlərdən ilk həftələrdə eyni oturacaqlarda oturmağı və oturma sxemini hazırlamağı (xəritəsi) xahiş edin. Hər dərsdə dörd-beş ad yadda saxlamağa çalışın.

**Fotolar çəkin və ya şagirdlərin çəkdiyi şəkilləri götürün.** Mümkünsə, dərsin ilk və ya ikinci günündə şəkillər üçün şagirdləri qruplaşdırın. Şəkil çəkmək çox vaxt qeyri-rəsmi, rahat bir mühit yaradır. Fotoşəkilləri bir-bir ötürün və tələbələrə şəkillərinin yanında adlarını yazmağı, yaxud hər bir şagirdi nömrələməyi, onların adlarını fotoşəkillərin arxasına yazmalarını xahiş edin. Fotoşəkillərin çəkilməsi mümkün deyilsə, onlara öz şəkillərini və ya tərəfdaşlarının rəsmlərini çəkdirin. Şəkilləri üzlərə uyğunlaşdırmağa kömək etmək üçün qırıq diş və ya qıvrım saç kimi tərəfdaşlarında olan unikal bir əlaməti çəkməyə təşviq edin. Şəkillərə adlarını əlavə edin və şəkilləri oturduqları yerə yaxın yerləşdirin. Şəkilləri şagirdlərin yanına qoymaq mümkün deyilsə, ilk və ya ikinci həftədə şagirdlərinizi ardıcıl sıra ilə əyləşdirin (sonra onları öyrənmə qruplarına ayıra bilərsiniz). Şəkilləri hər sıranın yanındakı divara şaquli olaraq düzün, üst şəkil divarın yaxınlığında olan şagird, alt şəkli isə divara uzaq olan şagird olsun.

**Ad kartlarından və etiketlərdən istifadə edin.** Fotoşəkillər və ya şəkillərin çəkilməsi mümkün olmadıqda, şagirdlərə dərs zamanı onların qarşısında yerləşdirəcəkləri ad kartlarını düzəltmələrini təklif edin. Masalardan istifadə etmirsinizsə, şagirdləriniz dərsin ilk bir neçə həftəsində üzərlərinə taxmaq üçün ad etiketləri düzəldə bilərlər. Dərsdən əvvəl və ya bu ilk həftələrdəki müddət ərzində sıraların kənarlarında oturan şagirdlərin adlarını öyrənin və onları sinifdə adları ilə çağırın. Tədricən hər bir şagirdi adıyla çağıraraq otağın mərkəzində sıralara keçin.

**Təqdimatlardan istifadə edin.** Bir neçə şagird özünü təqdim etsin. Sonra təqdimatları dayandırın və başqa bir şagirddən xahiş edin ki, artıq özlərini təqdim edənlərin hamısının adlarını çəksin. İlk bir neçə ad xatırlandıqdan sonra hamını tanıyana qədər daha bir neçə dəfə təqdimat keçirin. Çoxuşaqlı siniflər üçün ilk həftə boyu bu məşqi edin və hər gün təqdimat etmək üçün bir kiçik qrupu seçin.

> **Dərsdə iştirakı yoxlayın.** Ən qısa müddətdə üzləri və adları yadda saxlamaq üçün dərs ilinin əvvəlində bir neçə dəfə ad siyahısından istifadə edərək şagirdləri tanımağa çalışın. Bəzi adları öyrənməkdə çətinlik çəksəniz də, şagirdləriniz səylərinizi yüksək qiymətləndirəcəklər.

**Şagirdlərin adlarını aktiv istifadə edin.** Şagirdlər danışmazdan əvvəl hər dəfə adlarını desin. Hamının bir-birini tanıdıqlarına əmin olmadıqca bu proses davam etdirilə bilər. Mümkün qədər sıx şəkildə şagirdlərin adlarından istifadə edin.

**Yadda saxlayın.** Hər gün bir sıra və ya bir qrup şagirdin adını əzbərləyin. Dərs başlamazdan bir neçə dəqiqə əvvəl, adları təkrar edin, yadda saxladığınıza əmin olun və sonra başqa bir sıra və ya bir qrup şagirdi əlavə edin.

**"Açar sözlərdən" istifadə edin.** Şagirdlərin adını onların fiziki və ya fərdi xüsusiyyətləri ilə uyğunlaşdırın. Məsələn, Mariyanın ön dişləri yoxdur, Ramon sarışın və qıvrım saçlıdır, Şiren həmişə gülümsəyir. Şagirdlərdən özlərini tanıtmalarını istəyərkən, onları fərqləndirən bir "fiziki xüsusiyyət" deməsini xahiş edin. Bu xüsusiyyətlər qalıcı və görünəbilən olmalıdır.

**Dərs vaxtından yaradıcı şəkildə istifadə edin.** Məsələn, sinifdə yazılı tapşırıq verərkən şagirdlərdən xahiş edin ki, iri hərflərlə adları yazılan vərəqləri qarşılarına və ya ad etiketlərini masalarda önlərinə qoysunlar. Daha sonra otaqda gəzişərək adları öyrənə bilərsiniz.

**Şagirdləri cəlb edin.** Hər gün iki və ya üç şagirddən "dərs köməkçisi" olmalarını istəyin. Nümayişlərdə, paylama materiallarında və ya digər fəaliyyətlərdə sizə kömək etmələrini xahiş etmək də onların adlarını öyrənməyə kömək edə bilər. İşləyərkən onlarla danışın ki, onların keçmişi və maraqları haqqında məlumat əldə edə biləsiniz.

**Sinfi kiçik qruplara bölün**. Bütünlükdə qrupu kiçik "işçi qruplara" bölmək adları yadda saxlamağınızı asanlaşdıracaq. Dərs vaxtından hər bir qrupa kiçik layihələr vermək üçün istifadə etmək olar. Kiçik qruplarda 8-9 uşağın yadda qalması 60-dan yuxarı üzü yadda saxlamaqdan çox asandır. Kimin harada oturduğunu vizuallaşdırmağa çalışın. Sonra konkret qrupun hər bir üzvünün adını yadda saxlamağa səy göstərin.[9]

İnteraktiv "səni tanımaq" fəaliyyətini həyata keçirin Şagirdlərin bir-birlərini və sizin şagirdlərinizi tanıya bilməniz üçün tədris ilinin ilk iki və ya üç günü ərzində interaktiv "səni tanımaq" fəaliyyətini həyata keçirin. Çoxuşaqlı siniflər üçün altı, ya səkkiz şagirddən hər dərs gününün əvvəlində və

9. Teaching & Advising: Getting Started – The First Week of Class. Learning Students' Names. Teaching and Learning Center, University of Nebraska – Lincoln. http://www. uu.edu/centers/faculty/resources/ article.cfm?ArticleID=107 [accessed online on 3/7/2006]

sonunda özlərini tanıtmalarını xahiş edin, yaxud ad oyunu oynayın. Bu oyun kiçik siniflərdə yaxşı işləməsinə baxmayaraq, asanlıqla şagirdlərin qruplaşdırılması və ya sinfin başqa bir üsulla müvəqqəti kiçildilməsi halında böyük siniflərdə də asanlıqla istifadə edilə bilər. Oyun bir şagirdin adını deməsi ilə başlayır. İkinci şagird birinci şəxsin adını və öz adını verir, üçüncü şagird öz adını və ilk iki tələbənin adını verir. Zəncir birinci şəxsə qayıdana qədər davam edir.

Bu tanıma oyunu üçün yarımçıq cümlələri tamamlamağı xahiş edən xüsusi forma da düzəltmək olar.

"Mən məktəbdən sonra ____________________________ xoşlayıram.

Mənim sevimli yeməyim ______________________________________

Mənim sevimli fəaliyyətim ____________________________________

Mənim məktəbdəki sevimli fənnim______________________________

Mən _____________________________________kimi olmaq istəyirəm

Mən məktəbi bitirdikdə _______________________ olmaq istəyirəm".

Hətta şagirdlər əvvəllər eyni sinifdə oxumuş olsalar belə bu formadan çoxuşaqlı siniflərdə oxuyan şagirdlərin bir-birlərini daha yaxşı tanıması üçün bir yol olaraq istifadə edə bilərsiniz. Bu formanın olduğu vərəqdə kağızın sağ tərəfinə bir sütun əlavə edin, ancaq həmin sütunu boş qoyun. Boşluqları doldurduqdan sonra, şagirdlərdən hər cümləyə eyni cavab verən digər şagirdləri tapmağı və hər bir şagirdin adını bu sütuna yazmağı xahiş edin.

**Şagirdlər üçün anketlər hazırlayın.** Çoxuşaqlı siniflərdə müəllimlər şagirdlərinin sinif xaricindəki həyatları barədə məlumat əldə etmək üçün effektiv bir yola ehtiyac duyurlar, belə ki, bu məlumatlar onlara öyrənmə prosesində problemlər yarandıqda şagirdə kömək etməyə imkan verir. Bir çox müəllimlər şagirdlərin ailələri haqqında məlumat almaq üçün sadə anketlər hazırlayır. Bunlar şagirdin təhsil almasına və məktəbdə davamiyyətinə təsir göstərə biləcək məsələlərə aid olur. Bu anketdə bir şagirdin valideynlərinin həyatda olub-olmaması və ya onların ailə vəziyyəti, eyni evdə yaşayıb-yaşamaması, şagirdə qayğı göstərənin kimliyi, evdə neçə nəfərin işlədiyi, şagird ilə münasibətləri, təhsili və peşəsi, ailənin maliyyə imkanları və s. kimi suallar olur. Məlumatlar ya evə göndərilərək valideynlər və ya qəyyumlar tərəfindən doldurulur, ya da şagirdlərin özləri ilə görüşərək toplanılır. Şagirdin

dərsləri zəifləməyə başladıqda müəllim mümkün səbəbləri və görüləcək tədbirləri müəyyən etmək üçün anket məlumatlarından istifadə edə bilər.[10]

**Özünüz olun.** Bu, sadəcə "müəllim" olaraq deyil, şagirdlərinizə özünüzü "bir şəxsiyyət" kimi təqdim etmək deməkdir. Siz onlara onlar haqqında öyrənməyə və özünüz haqda danışmağa nə qədər maraqlı olduğunuzu göstərin. Şagirdlərinizlə çox şəxsi məlumatlarınızı bölüşmək lazım deyil, mühazirələrdə və tədris prosesi zamanı özünüz haqqında məlumat vermək öyrənmə mühitini fərdiləşdirməyə kömək edə bilər. Proses, şagirdlərinizin nə öyrənəcəyini və ən yaxşı öyrənmə metodları ilə bağlı təcrübənizi danışarkən hətta ilk gündən başlaya bilər. Unutmayın: yumor hissi və özünüzə gülə biləcəyinizi göstərmək şagirdlərinizlə müsbət münasibət qurmağa kömək edə bilər.[11]

**Şagirdlərə fikirlərini bildirməyə icazə verin.** Məktəbin ilk iki və ya üç həftəsində hər bir şagirdə sinifdə danışmaq şansı vermək, onları böyük sinif müzakirələrində iştirak etməyə təşviq edəcəkdir. **Unutmayın:** bir şagird sinifdə danışmadan nə qədər çox otursa, ona kömək etmək bir o qədər çətin olacaq. Məktəbin ilk həftələrində şagirdlərin əvvəlcə kiçik qruplarda işləməsini xahiş edin, çünki bu, utancaq şagirdlərin sonradan böyük sinif şəraitində iştirak etmələrini asanlaşdıra bilər.

**Şagirdlərinizi sual verməyə və şərh bildirməyə təşviq edin.** Bir çox şagird həmyaşıdları qarşısında sual vermək və şərh bildirməkdən utanırlar. Bəzi müəllimlər şagirdlərin sual verməklərini xoşlamırlar, çünki sualları sinifdəki hakimiyyətləri üçün təhdid olaraq görürlər. Bununla yanaşı, suallar, şagirdlərinizin öyrəndikləri, çətinlik çəkdikləri mövzular haqqında öyrənmək, tədrisinizi daha mənalı və xoş hala gətirmək üçün dəyərli bir vasitədir.

Şagirdləri sual verməyə və öyrəndikləri mövzularda fikirlərini bildirməyə təşviq etmək üçün bəzi müəllimlər "çevik" suallardan istifadə edirlər. Bu üsulda müəllim şagirdin öyrəndiklərinə və topladığı təcrübələrə əsasən cavablandırılmasını gözlədiyi sual verir və ya fikir bildirir.[12] Məsələn, bir versiyada müəllim deyə bilər ki: "Sinfimiz çox böyükdür və mən sizin hamınızla mümkün qədər tez tanış olmaq istəyirəm. Buna görə mənə özünüz, bəyəndi-

10. Booklet 3: Getting All Children In School and Learning. Embracing Diversity: Toolkit for Creating INCLUSIVE, Learning-Friendly Environments. Bangkok: UNESCO, 2004.
11. Large Classes: A Teaching Guide – Large Class Introduction. Center for Teaching Excellence, University of Maryland, 2005. www.cte.umd.edu/library/large/intro.html [accessed online on 10/7/2005]
12. Brenner, J. "Making Large Classes More Interactive,"INQUIRY, Vol. 5, No. 1, Spring 2000. www.vccaedu.org/inquiry/inquiry-spring2000/I-51-brenner.html [accessed online on 12/2/2005]

yiniz və bəyənmədiyiniz şeylər, həyatınızda olan maraqlı təcrübə və məktəb haqqında düşündüklərinizi danışın". Digər bir sual "mənə nə kimi suallarınız var ..." tipli ola bilər və sonra şagirdlərinizə sualları formalaşdırmaq üçün vaxt verin. Bəzi müəllimlər şagirdlərə cavablarını tərtib etmək üçün vaxt vermək məqsədilə səssizcə 10-a qədər saymağı tövsiyə edirlər. Şagirdlərinizdən heç biri cavab vermək istəmirsə, bir könüllü istəyin. "Məndən soruşduğuna şadam" və ya "Bu, yaxşı sualdır" kimi cavablar şagirdlərinizi sual verməyə və şərh verməyə həvəsləndirəcəkdir. Gülümsəmək və ya başınızı yelləmək kimi qeyri-verbal hərəkətlər şagirdlərin suallarına, şərhlərinə dəstəyinizi göstərə bilər.

**Çətinlik anlayışını qəbul edin və çətinlikləri gözləyin.** Çoxuşaqlı siniflərdə oxuyan şagirdlər sual vermək və ya cavab vermək istəməyə bilər, çünki öyrətdiyiniz anlayışı başa düşmədiklərini başqalarına göstərməkdən qorxurlar. Bunu mənimsəməyiblər. Qorxularını dəf etməyə kömək etmək üçün ilk dəfə materialı başa düşməyin çətin olduğunu etiraf edin. Çətin bir konsepsiya və ya dərs izah edərkən, onu öyrənməkdə çətinlik çəkdiyinizi və onu öyrənməyə və yadda saxlamağa kömək edən metodlardan danışa bilərsiniz. Dərsdən əvvəl, dərsinizi hazırladıqdan sonra özünüzdən soruşun: "Şagirdlərim bu dərsdə nəyi anlamaqda çətinlik çəkə bilər? Hansı nümunələr bunu daha anlaşıqlı edə bilər?" Bəzi müəllimlər, şagirdlərin başa düşməkdə çətinlik çəkdikləri şeyləri yadda saxlamaq üçün adətən tapşırıqlarda, yaxud testlərdə səhvlər və ya ən çox ortaya çıxan sualları qeyd götürürlər.

***Yadda saxlayın: Çətinliyin fərqində olmaq və onun qarşısını almağa çalışmaq, şagirdlərinizi digərlərinin qarşısında utanmaqdan xilas edə bilər.***[13]

Əlçatan olun. Çoxuşaqlı siniflərin ən böyük çatışmazlıqlarından biri şagird və müəllim nisbətinin yüksək olmasıdır. Bu problemlə mübarizənin bir yolu, dərsdən əvvəl və sonra şagirdlər üçün əlçatan olmaqdır. Dərsdən əvvəl məktəb sahələrini və ya sinif yerlərini gəzib şagirdlərdən o gün necə hiss etdiklərini soruşa bilərsiniz. Dərs bitən kimi şagirdlərinizə suallara cavab verə biləcəyinizi söyləyin. Şagirdlərin gəlib suallarını vermələri üçün günün digər vaxtlarında 10-15 dəqiqə vaxt ayırın; bəzən bu sualları başqalarının qarşısında soruşmaq istəməyə bilərlər. Gündə beş və ya daha çox şagirdi qəbul edə, onlarla sinif və ya məktəb haqqında danışa bilərsiniz. Ümumiyyətlə, şagirdlərinizi adları ilə tanıyın və şəxsiyyət olaraq onlar haqqında nəsə öyrənin.

13. Student Ratings of Teacher Effectiveness: Creating an Action Plan. Center for Support of Teaching and Learning, Syracuse University, New York. http://cstl. syr.edu/cstl2/Home/Teaching%20Support/Teaching%20at%20SU/Student%20 Ratings/12A500.htm [accessed online on 1/30/2006].

***Yadda saxlayın: Siz şagirdlərinizə və şagirdləriniz sizə nə qədər yaxın olsanız, onlar sizi görməkdə, sizinlə danışmaqda, sizi dinləməkdə rahat olacaqlar.***

**Şagirdlərə fərdi olaraq diqqət yetirin.** Çoxuşaqlı sinif, diqqətinizə ehtiyacı olan şagirdlərin sayının artması baxımından kiçik siniflərdən fərqlənir. Bəzi şagirdlər istər kiçik, istərsə də böyük siniflərdə yaxşı nəticə göstərsələr də, əksər şagirdlərin çoxuşaqlı siniflərdə daha yaxşı performansı üçün daha çox diqqətə ehtiyacı olur. Bu problem şagirdlərin davamiyyətinin izlənməsi, imtahan və ev tapşırıqları, sinifdəki iştirak, digər siniflərdəki performansların nəzərdən keçirilməsi kimi bir çox üsullarla həll oluna bilər. Ayrıca olaraq, müəyyən bir mövzu və ya dərsin mənimsənilməsi üçün tələb olunan bilik və bacarıqları əhatə edən "diaqnostik test" kimi tanınan metoddan da istifadə edə bilərsiniz. Məktəbin ilk həftəsində, yaxud yeni bir mövzuya başlayanda verilən test qiymətləndirilməməlidir. Onun yeganə məqsədi əlavə köməyə ehtiyacı olan şagirdlərlə əvvəlcədən işə başlamaq üçün bu şagirdləri müəyyənləşdirməyə kömək etməkdir. Beləliklə, diqqətinizi böyük, çox vaxt aparan bütöv bir sinifdən daha çox sizə ehtiyacı olan daha kiçik bir qrup şagirdə yönəldə bilərsiniz. Bir şagirdin davranışında və ya öyrənmə fəaliyyətində kəskin bir dəyişiklik görsəniz, onunla fərdi görüş keçirə bilərsiniz. Şagirdin ev şəraiti və evdəki vəziyyəti soruşmağı unutmayın, çünki bu da onların fəaliyyətinə təsir göstərə bilər. Şagirdin sizin həll edə bilməyəcəyiniz problemi olduqda, onda kömək edə biləcək başqa bir instansiya və ya xidmətə müraciət etməlisiniz. Bir neçə şagird çətinlik çəkirsə, materialı nəzərdən keçirmək və suallara cavab vermək üçün qrup iclasları təşkil edə bilərsiniz.

**Şagirdlərin davranışı üçün məqbul qaydalar yaradın.** Bütün sinif otaqlarının səmərəli işləməsi üçün qaydalara ehtiyacı var və çoxuşaqlı siniflər üçün isə bu, bir zərurətdir. Şagirdlər məhdudiyyətləri, həmçinin başqaları ilə necə davranmağı və onların haqlarına hörmət etməyi bilməlidirlər. Qaydaları əvvəlcədən izah edin, qarşılıqlı əməkdaşlıq və düşüncəliliyin dəyərini vurğulayın. Qaydaların hazırlanması üçün ümumi təlimatlara aşağıdakıları daxil edin:[14]

- Şagirdlərinizi sinif qaydalarını təkmilləşdirməyə cəlb edin! "Sinif yoldaşlarınız və müəlliminiz kimi başqalarının hüquqlarına müdaxilə etməyəcəyiniz təqdirdə bu sinifdə istədiyinizi edə bilərsiniz" prinsipindən başlayaraq "hüquqlara əsaslanan" yanaşmanı tətbiq edə bilərsiniz.

14. ILFE Specialized Booklet 1. Embracing Diversity: Tools for Positive Discipline in the Inclusive, Learning-Friendly Classroom – A Guide for Teachers and Teacher Educators. Bangkok: UNESCO, 2006.

Şagirdlər hansı davranışların məqbul olduğunu və başqalarının hüquqlarını pozduğuna görə hansı davranışların məqbul olmadığını müəyyənləşdirməlidir. Bu öhdəliklərin yerinə yetirilməsi üçün qaydalar, habelə qaydaların pozulmasına görə cəzalar hazırlayın. Unutmayın ki, cəzalar düzgün olmayan davranışın təbiətinə uyğun olmalıdır və şagirdlərinizin yaxşı davranışları öyrənmələrinə kömək etmək üçün müsbət nizam-intizama əsaslanmalıdır. Məsələn, bir şüşəni sındırdığı üçün divarın qarşısındakı bir küncdə dayanması şagirdə heç nə öyrətmir. Şagirdin etdiyi hərəkətə görə üzr istəməsi və ətrafı təmizləməsi ona məsuliyyəti öyrədir.

- Şagirdlərinizdən qaydaları özündə cəmləşdirən "sinif konstitusiyası" və ya "sinifdəki qaydalar toplusu" hazırlamağı xahiş edin, onu gözəçarpan yerə qoyun. Qayda-qanunlara riayət etməyə və qaydaları pozduqları zaman nəticələrinə qatlaşacaqlarına razı olduğu halda onlardan bu toplunu imzalamalarını xahiş edin. Şagird qaydaları pozmamaq öhdəliyini üzərinə götürdükdə daha arzuolunan davranışlar nümayiş etdirir.
- Düzgün davranışı vurğulayan bir neçə qayda hazırlayın; nə siz, nə də şagirdlər uzun bir siyahını yadda saxlayacaqsız. Qaydaları mümkün qədər aydın və anlaşıqlı edin. Bu qaydalar davranış nöqteyi-nəzərindən hazırlanmalıdır: "Əlləriniz və ayaqlarınızı dinc saxlayın" cümləsi aydın səslənərək "dava salmayın" kimi pozitiv mesaj verir.
- Uğurlu bir sinif qurmaq üçün qaydalar hazırlamağı və ya gözləntiləri müəyyən etməyi düşünün: (a) davamiyyətin necə yoxlanacağı daxil olmaqla dövr və ya günün başlanğıcı və sonu, o cümlədən bu müddət ərzində şagirdlərin edə biləcəyi və ya edə bilməyəcəkləri; (b) materialların və avadanlıqların istifadəsi qaydası; (c) gözlənilməz ehtiyaclar üçün icazənin istənilməsi qaydası (tualetə getmək və ya qələm itiləmək kimi); (d) yazılı işlər və müstəqil qrup işləri üçün prosedurlar; və (e) şagirdlərin sual verməsi və cavablandırması qaydaları.
- Sinif mühitini nizamlı hala gətirən və öyrənməyə kömək edən qaydaları seçin. Ardıcıl olaraq tətbiq etmək istəmədiyiniz və ya edə bilməyəcəyiniz sinif qaydalarını kənarlaşdırın. Əlavə olaraq, məktəbdə hamı tərəfindən yekdilliklə razılaşdırılmış və ya ona əməl olunan qaydaları seçin. Şagirdlər dərsinizdə müəyyən bir şəkildə davrana bilmədiklərini, ancaq digər dərslərdə bunu edə bildiklərini öyrənən-

də, pis davranışlarının "cəzasız qalmaq" limitini müəyyən etmək üçün bunu mütləq hansısa formada sınamağa çalışacaqlar.

Qaydaları mütəmadi olaraq yoxlayın. Bəzilərinin artıq lazım olmadığını görsəniz, onları ləğv edin. Şagirdlərinizdən yeni qaydalara ehtiyac olub-olmadığını soruşun.

**Müsbət intizam texnikalarından istifadə edin.** Sinifdəki şagirdlər, sinif böyük və ya kiçik olmasından asılı olmayaraq, qaydaları poza bilərlər. Bu, onların inkişafının normal bir hissəsidir. Belə davranışları özünüzlə əlaqələndirməyin. Bəzi müəllimlər şagirdlərin yalnış davranışlarını tənzimləmək və nəzarəti əldə saxlamaq üçün fiziki cəza tətbiq edirlər. Bu istisna hallar daha çox konkret qaydalar olmayan, çoxuşaqlı siniflərdə dərs deyən müəllimlər arasında yayılıb. Qaydalar olmadıqda və müəllim şagirdlərin düzgün davranması, eləcə də onlarla yaxşı münasibət qurmaq üçün vaxt ayırmadıqda şagirdlər onlardan nə gözlənildiyini və səhv davranmağın fəsadlarını bilmirlər. Bunun səbəbi "Mən müəlliməyəm və hər şeyi öz bildiyim formada edəcəm!" tərzində hökmlü sinif idarəetmə tərzi ilə əlaqəli ola bilər. Bəzən müəllimlər sinif üzərində nəzarəti saxlamaq və uşaqlarda qorxu hissi yaratmaq üçün cismani cəzadan istifadə edərək pis davranış təkrarlanmayacağına ümid edir (lakin təkrarlanır). Fiziki zorakılıq təhdidindən istifadə şagirdləri müəllimdən öyrənməyə təşviq etmir, yalnız ondan qorxudaraq uzaqlaşdırır. Bu hal sinifdəki psixo-sosial mühiti də məhv edir. Üstəlik, cismani cəza **insan hüquqlarının** pozulmasıdır və bir çox ölkədə bu **qanunsuzdur.**

Cismani cəza şagirdin davranışını idarə etmək üçün nəzərdə tutulsa da, müsbət intizam şagirdi xüsusilə davranış məsələlərində **inkişaf etdirmək** deməkdir. Cismani cəza əvəzinə istifadə edilə bilən bir çox müsbət intizam üsulları var. Aşağıda diqqət tələb edən və problemli davranışları olan tələbələri istiqamətləndirmək üçün edə biləcəyiniz bir neçə müsbət intizam tədbiri göstərilmişdir:

- Onlarla yaxşı davranın, diqqət tələb etmədiyi və yanlış davranmadığı zaman təriflәyin.
- Mümkün olduqda onların pis davranışlarına əhəmiyyət verməyin və yaxşı davrandıqda müsbət rəy bildirin.
- İstəklərini necə bildirəcəklərini öyrədin (məsələn, bir sualı olduqda əvvəldən paylanılan "fikir bildirmək istəyirəm" kartlarını qaldıra bilərlər).

- Lazım olduqda onlara sərt baxın, amma danışmayın.
- Mümkün qədər onlara yaxın durun (xüsusi diqqətə ehtiyac yoxdur, yaxınlıqda dayandıqda onlar özlərini tənzimləyəcək).
- Hədəfə al – dayandır – et; yəni şagirdin adını hədəfə alın, dayandırılacaq davranışı müəyyənləşdirin, şagirdə o anda nə edəcəyini söyləyin, sonrakı əməllər və nəticə barədə qərar verməsinə zaman verin.
- İşıqları söndürmək, musiqi səsləndirmək, səsinizi aşağı salmaq, səsinizi dəyişdirmək, divarla danışmaq kimi gözlənilməyən hərəkətlər edin.
- Qəfildən sual vermək, seçim təqdim etmək və ya fəaliyyəti dəyişdirməklə onların diqqətini yayındırın.

Bəzən çoxuşaqlı siniflərdəki müəllimlər əsəbləşəndə cismani cəzadan istifadə edir. Qəzəb və məyusluqla mübarizənin bir çox müsbət yolu var. Bəzi müəllimlər şagirdlərinə "Mənə sakitləşmək üçün vaxt lazımdır. Hazırda çox əsəbiyəm " deyirlər. Digərləri 10-a qədər saymaqla və ya otaqdan bir neçə dəqiqə çıxaraq sakitləşirlər. Bəzi müəllimlər, şagirdlərinə duyğularını izah edirlər ki, onları qıcıqlandıran şeyləri anlasınlar. Şagirdlər sonradan müəyyən davranışlarda nəyi və nə üçün etməməyi öyrənirlər. Bütün bunlardan sonra şagirdlər eyni hərəkəti yenidən edə bilərlər, lakin onlar bilməlidir ki, əməlləri üçün məsuliyyət daşıyır və nəticələrinə qatlaşmaq məcburiyyətində qalacaqlar. Bütün hallarda, bu metodları özündə cəmləşdirən müsbət nizam-intizam planını hazırlamağınız tövsiyə edilir.[15]

**Şagirdlərinizi cəlb edin.** Şagirdlər sinfin psixo-sosial mühitini idarə etməkdə çox kömək edə bilərlər. Yanlış davranışla mübarizə aparmaq üçün şagirdlər sinifdə davranış qaydalarının hazırlanması, uyğun cəzaların təyin edilməsi və düzgün olmayan davranış hallarında nə etmək lazım olduğunu qərar vermək üçün "sinif intizam komitəsini" seçə bilərlər.

Çoxuşaqlı siniflər ilə əlaqəli digər problem şagirdlərlə sinifdə və ya sinif xaricində nələr baş verdiyinə nəzarət edilməsidir. Bunu asanlaşdırmaq üçün bütün şagirdlərin maraqlarını təmsil edən seçilmiş 4-6 nəfərdən ibarət "Şagird idarəetmə qrupu" yaratmağı nəzərə alın. Bu qrup sinfi daha yaxşı idarə etmək üçün fikir və narahatlıqlarını sizinlə bölüşə bilərlər.

15. Kömək üçün nəzərdən keçirin: ILFE Specialized Booklet 1. Embracing Diversity: Tools for Positive Discipline in the Inclusive, Learning-Friendly Classroom – A Guide for Teachers and Teacher Educators. Bangkok: UNESCO, 2006.

# Çoxuşaqlı siniflərdə effektiv tədris

## Yalnız Nə Öyrətmək Deyil, Həm Də Necə Öyrətmək

Gözlərinizi yumun və şagird olduğunuz vaxtı yadınıza salın; bəlkə də sinifdəki çoxsaylı uşaqlardan biri olmusunuz. Heçnə öyrənə bilmədiyinizi nə vaxt hiss etdiniz? Fikirlərinizi kağızda qeyd edin. Çoxuşaqlı siniflərdə şagirdlərin tədris etdiklərinizi qavramamasının ən çox rast gəlinən səbəbləri aşağıda sadalanmışdır.[16] Bu səbəblərdən siyahınızda olanı varmı?

- Dərslər, mühazirələr və ya fəaliyyətlərin şagirdlərə aydın olmaması;
- Müəllimlərin həvəssiz və cansıxıcı olması;
- Tədris metodunun darıxdırıcı olması;
- Sinifdə istifadə edilən nümunələrin praktiki qaydada tədris edilən anlayışların başa düşülməsi və ya tətbiq edilməsinə yardım etməməsi. Nümunələrin heç bir məna kəsb etməməsi;
- Əsas məqamların vurğulanmaması və əsas fikirlərin ümumiləşdirilməməsi.

Qeyd edilən səbəblərdən hansısa sizin tədris üsulunuzu xarakterizə edirmi? Səmimi olun! Cavab müsbətdirsə narahat olmayın. Bu bölmədəki məlumatlar sizə daha effektiv dərs keçməyə kömək edəcək.

## Dərslərin planlaşdırılması

Çoxuşaqlı siniflərdə vaxtdan səmərəli istifadə etmək və öyrənmək üçün zaman ayırmaq xüsusilə vacibdir. Bu qabaqcadan planlaşdırmaq deməkdir. Çoxuşaqlı sinfin tədris edilməsi üçün aparılan işlərin böyük hissəsi sinfin ilk dərsindən çox əvvəl başlayır. Məsələn, azuşaqlı siniflərdə daha asanlıqla spontan tapşırıqlar verə bildiyiniz halda çoxuşaqlı siniflərdə dərs və fəaliyyətlərinizi daha diqqətlə planlamaq üçün daha çox vaxta ehtiyac duyacaqsınız.

16. Student Ratings of Teacher Effectiveness: Creating an Action Plan. Center for Support of Teaching and Learning, Syracuse University, New York. http://cstl.syr.edu/cstl2/Home/Teaching%20Support/Teaching%20at%20SU/ Student%20Ratings/12A500.htm [accessed online on 1/30/2006].

Əfsuslar olsun ki, müəllimlərin bir çoxuna dərslərin planlaşdırılmasına dair təlim keçirilməmişdir. Onlara dərsliklərə istinad etmək öyrədilmiş və həqiqətən də bəzən dərsliklər yeganə tədris vasitəsi kimi istifadə edilir. İstənilən halda nə, niyə və necə edəcəyinizi qabaqcadan biləcəyiniz üçün düşünülmüş dərs planının olması sizi çoxsaylı şagirdlərin qarşısında dərs demək qorxusundan azad edəcək. Siz sakit və təmkinli şəkildə dərs deməklə özünüzə əminliyinizi şagirdlərə ötürəcək, onlar da öz növbəsində sizin keçdiyiniz dərsi öyrənməyə daha meyilli olacaqlar. Hətta dərsliklərə əsaslansanız belə dərslikdə olan məlumatları bütün uşaqların başa düşəcəyi səviyyədə izah etmək üçün planlama aparmalısınız. Çoxuşaqlı siniflər üçün belə planlama lüks deyil; bu sinfin izdihamlı olmasına baxmayaraq sinif mühitinə nizamlılıq gətirəcəyi üçün çox mühüm əhəmiyyət kəsb edir. Planlama prosesi əsas üç sahə üzrə mərkəzləşir:

- **Yuxarıda qeyd edildiyi kimi sinfin fiziki və psixo-sosial mühiti;**
- **Milli tədris proqramınızda hansı mövzunun müəyyən edilməsi, şagirdləriniz üçün bu mövzunun necə mənalı olması və yerli icmanın maraqlarına uyğunlaşdırılması daxil olmaqla məzmun;**
- **Şagirdlərin müxtəlif öyrənmə üslublarına uyğunlaşması üçün müxtəlif tədris metodlarından istifadə edilməsi, eləcə də tədris və öyrənmə üçün ayrılan vaxtın artırılması daxil olmaqla proses, yaxud məzmunun necə öyrədilməsi.**

Dərslərin planlaşdırılmasında çoxsaylı şagirdlərin öyrənməsini idarə etməyə kömək olacaq ən vacib elementləri sizə təqdim edirik:

**Dərs dediyiniz mövzu və ya məzmunda özünüzə əmin və rahat olun.** Tədris etdiyiniz mövzu və ya məzmundan əmin olmadıqda çoxuşaqlı sinfə dərs demək daha da çətinləşir. Təqdimat zamanı özünüzə əmin olmaq və dərs dediyiniz zaman sabit fokusu saxlamaq üçün əhatə edəcəyiniz mövzularla yaxından tanış olun. Nəticədə şagirdləriniz mühazirələrinizi və onun tərkibindəki fəaliyyətləri asanlıqla izləyə biləcək, habelə daha az darıxacaq, fikri yayınacaq. Şagirdlərinizə verəcəyiniz sualları fikirləşərək onların da sizə verə biləcəyi sualları əvvəlcədən müəyyən edin. Əvvəl bu mövzunu keçmiş müəllimlərin kurs materialları, tapşırıqları, ədəbiyyat siyahısı və oxu materiallarını nəzərdən keçirin. Mümkün olduqda təcrübəli müəllimin dediyi dərsdə iştirak edərək onun çoxuşaqlı sinifdə məzmunu və şagirdlərin fəaliyyətlərini necə təşkil etməsinə baxın.

**Bu mövzunu tədris etmək məqsədiniz və bu mövzu qarşısında qoyulan tədris vəzifələrinə aydınlıq gətirməyə çalışın.** Şagirdlərinizə öyrətmək istədiyiniz bilik, bacarıq və davranışlar haqqında düşünərək bir dərsdə diqqət mərkəzində saxlamaq üçün bir və ya ikisini seçin. Bütün şagirdlərinizə konkret dərsdən onların nəyi öyrənməklərini istədiyinizi aydın şəkildə izah edin. Çoxuşaqlı siniflərdə bəzi müəllimlər dərsə başlamazdan öncə kursun və ya mövzunun qarşısında qoyduğu vəzifələri lövhədə, yaxud böyük plakatda qeyd edir. Bunun ardınca hamıda keçirilən dərsə dair vahid təsəvvürün yaradılması üçün dərsə başladıqda hər bir vəzifəni şagirdlərə izah edir.

**Dərsinizi məntiqi ardıcıllıqla qurun.** Çoxuşaqlı siniflərdə şagirdlərin diqqətini yayındırmağın ən yaxşı yolu mövzu, konsept və fəaliyyətlərin nizamsız şəkildə təqdim olunmasıdır. Tarixi hadisələr və ya addımbaaddım yanaşma ardıcıllığı (A, C ilə nəticələnən B-yə səbəb olur) olan bəzi dərslər və onların məzmunun xronoloji ardıcıllıqla təqdim olunması daha məqsədəuyğundur. Başqa hallarda məsələni izah edərək onun həllini təsvir etmək olar və ya daha yaxşısı şagirdləriniz fərdi ya da, qrup şəklində işləyərək məsələnin həllini təsvir edə bilər.

***Yadda saxlayın: Zehninizdə informasiyanı necə nizamladığınız şagirdlərinizin də bunu eyni qaydada edəcəyinə dəlalət etmir. Hansı məlumatların, hansı ardıcıllıqla və hansı üsulla (tədris metodu, nümunələr və s.) əhatə edilməsinə qərar verən zaman tədris etdiyiniz materialın çətinlik dərəcəsini, şagirdlərinizin mənimsəmə səviyyəsini nəzərə alın.***

**Tədris strategiyanız və fəaliyyətləri əvvəlcədən planlayın.** Bunu etmək istəyinizə baxmayaraq bütün dərs müddətində mühazirə deməyi planlaşdırmayın. Orta şagirdin diqqət dairəsinin 10-15 dəqiqə ilə məhdudlaşdığını nəzərə alaraq şagirdlərin diqqətinin yayınmaması üçün bu vaxt müddətinə uyğun mühazirə formatını dəyişməyiniz yaxşı olardı. Xüsusilə çoxuşaqlı siniflərdə şagirdlər dərsdə sıxıldıqda bir-biri ilə danışmağa (və ya hətta yuxuya gedirlər) başlayırlar. Beləliklə, şagirdləri sual-cavab, əlaqəli nümunələr və ya şəxsi təcrübələrini paylaşmağa dəvət etmək kimi qısa çalışmalar, fəaliyyətlər olmaqla "mini-mühazirələr" deməyi planlayın.

Dərsinizin planlaşdırılmasında növbəli şəkildə bütün şagirdlərinizin iştirak edəcəyi fəaliyyətləri müəyyən edərək hər bir sessiya üçün bir və ya daha yaxşısı iki tədris metodu seçin: mühazirələr, kiçik qrup müzakirələri, müstəqil iş, rollu oyunlar, nümayişlər və s. Sadalananları necə edəcəyinizə qərar verin: (a) sinif təlimatlarının hazırlanması, (b) yeni anlayışla-

rın təqdim edilməsi, (c) şagirdlərin öyrəndiklərini fəaliyyətlər və çalışmalar vasitəsilə tətbiq etməsi (məsələn, müzakirələr, sinifdə yazı işi və ya birgə iş) və (e) şagirdlərin öyrəndiklərini praktikada tətbiqinin qiymətləndirilməsi (məsələn, qısa test sualları, sinifdə yazı işi, məsələ həlli və ya ev işi vasitəsilə).

Lazımi öyrənmə fəaliyyətini hazırlamaq üçün bir sıra ehtiyatlı planlama tədbirlərinə ehtiyac duyulduğu halda əsas mükafat çoxuşaqlı sinifdə şagirdin daha yaxşı öyrənməsidir. İlk öncə diqqətinizi "Hər dərs sessiyasında nə edəcəyəm?" sualını vermək əvəzinə "Mənim şagirdlərim nə edəcək?" sualı üzərində cəmləyin. Seçdiyiniz ixtiyari fəaliyyətdən asılı olmayaraq şagirdlərin qarşısında qoyulan öyrənmə məqsədlərinə nail olmaqlarını təmin edin.

***Yadda saxlayın: Çoxuşaqlı siniflərdəki şagirdlər müxtəlif növ öyrənmə fəaliyyətləri və tədris strategiyalarının təsirinə məruz qaldıqda daha da diqqətli olacaq.***

**Resurs və materialları müəyyən edin.** Dərs üçün hansı resurslara ehtiyac duyulur? Bu resurslar poster və kitablar kimi fiziki resurs və ya mahnı oxumaq, rəqs etmək ya da milli əl işləri düzəltməkdə mahir usta olan icma nümayəndələrindən ibarət insan resursları ola bilər. Şagirdləriniz üçün milli əl işləri düzəltmək kimi fəaliyyətin həyata keçirilməsi üçün hansı materiallara ehtiyac duyulur? Qrup işləri kimi fəaliyyətlərdə bu materiallar bir neçə uşağın arasında bölüşdürülə bilərmi? Şagirdləriniz və ya onların ailələri bu materialları təmin edə bilərlərmi?

**Müəllim köməkçilərini əvvəlcədən seçin.** Siz şagirdlərinizin öyrənməsi üçün cavabdeh sinif müəllimi olduqda başqalarından kömək ala bilərsiniz. "Müəllim köməkçiləri" çoxuşaqlı sinif üçün böyük töhfə olmaqla yanaşı onlar müəllimə şagirdlərlə fərdi işləməyə, fəaliyyətləri effektiv şəkildə idarə etməyə və ümumilikdə sinfi müşahidə etməyə şərait yaradacaq. Məsələn, çoxuşaqlı sinfin idarə edilmsində və ya müəyyən dərsin deyilməsində artıq təqaüdə çıxmış müəllimlər, universitet məzunları və ya valideynlərdən kömək istəyin. Onlar şagirdlərinizin qrup tapşırıqlarını yerinə yetirməsinə kömək etməkdə çox faydalı ola bilərlər. Siz sinifdəki yaşca daha böyük və ya ən yaxşı oxuyan şagirdlərdən yaşıdlarına müəllimlik etməyi xahiş edə bilərsiniz. İcmadakı "ekspertləri" xüsusi bilik və bacarıqlar haqqında danışan məsləhətçilər olmağa həvəsləndirin.

**Daha fərdi və xüsusi ehtiyacları olan şagirdlərə diqqət ayırın.** Sinfinizdə əlavə köməyə ehtiyacı olan şagirdlər varmı? Bu şagirdlərin hansı növ köməyə ehtiyacı var? Siz onlara fərdi olaraq kömək etməlisiniz yoxsa digər şagirdlər kömək edə bilər? Sinifdə onları münasib yerdə oturmağını təmin etməlisinizmi? Adətən xüsusilə çoxuşaqlı siniflərdə əlavə köməyə ehtiyac duyan şagirdləri ön sırada otuzdurmaq müəllimin işini asanlaşdırır.

**Formal dərs planını hazırlayın və ona əməl edin.** Düşünülmüş dərs planları ən azı iki məqsədə nail olur. Birincisi, dərs vaxtı müəllimin planladığı fəaliyyətlərin sxemini təsvir edir. İkincisi, bəlkə də ən vacibi müəllimin sessiya və fəaliyyətlərə dair öyrətdiklərini şagirdlərə çatdırır. Dərslərinizi yaxşı planlamaq üçün istifadə edə biləcəyiniz üsullardan biri sadə dərs planı sxemi, gündəlik dərs planlama formatı və ya aşağıda göstərildiyi kimi dərs planlaması matrisidir.[17] Dərslərinizin planlanmasında onlardan birini istifadə etməyə çalışın; bəlkə də sadəcə olaraq bir mövzu və ya dərsdən başlaya bilərsiniz. Bu sizin üçün çoxuşaqlı sinifdə tədrisinizi planlı şəkildə təşkil etməkdə qəti başlanğıc olacaq; belə ki, bu şagirdlərinizin keçdiyiniz dərsi başa düşüb-düşməməsinə nəzarət etməyinizin bir yolu olmaqla yanaşı sizə sonrakı addımınızı düşünməyə və tədrisinizi təkmilləşdirməyə imkan yaradır.

**Dərs planlaşdırma matrisi nümunəsi**

| Mövzu | Məqsədlər | Tədris metodları | Sinfin təşkili | Əsas fəaliyyətlər | Resurslar | Rəy/ Qiymətləndirmə | Refleksiya |
|---|---|---|---|---|---|---|---|
| | | | | | | | |
| | | | | | | | |

17. Bu barədə nümunələr qeyd edilən vəsaitdə verilmişdir: Booklet 5: Managing INCLUSIVE, Learning-Friendly Classrooms. Embracing Diversity: Toolkit for Creating INCLUSIVE, Learning-Friendly Environments. Bangkok: UNESCO, 2004.

**Vaxtınızı diqqətlə planlaşdırın.** Çoxuşaqlı sinfin tədrisi çox zaman və enerji tələb edir. Özünüzü təzyiq və ya yük altında əzilmiş hiss etsəniz bunu şagirdləriniz də hiss edəcək. Edilməsi gərəkənlər üçün hazırlıqlı olmaq məqsədilə özünüzə həftəlik iş cədvəlləri düzəldin. İmkan daxilində digər öhdəlikləri ixtisar etmək üçün yollar axtarın ki, belə sinifdə dərs deməyin mürəkkəbliyi ilə ayaqlaşmaq üçün vaxtınız olsun.[18]

## Tədris prosesinin başlanması

Çoxuşaqlı siniflərdə dərsi necə öyrətməyiniz nəyi öyrətməyinizdən daha vacibdir. Mühüm mövzuda əla dərs planı hazırlaya bilərsiniz, lakin mühazirə və fəaliyyətləri qeyri-kafi təqdim etməyiniz hər şeyi asanlıqla alt-üst edə bilər.

Çoxuşaqlı siniflərdə dərs deməyin ən böyük çətinliyi auditoriya ilə əlaqənin qurulması, eyni anda şagirdləri öyrənməyə həvəsləndirəcək, dərsə qulaq asacaq, sizin öyrədəcəyiniz bilik və bacarıqlara yiyələnəcəyi şəkildə dərsə marağın yaradılması, saxlanmasıdır. Siz yaxşı danışıq, yazı və dinləmə bacarıqlarına, eləcə də onların öyrəndiklərinin nə üçün mühüm əhəmiyyət kəsb etməsini və bunun gündəlik həyatda necə istifadə ediləcəyini göstərərək şagirdlərinizlə effektiv kommunikasiya qura bilərsiniz. Aşağıda sadalanan əlavə alətlər siz dərs deməyə başladığınız zaman şagirdlərinizlə daha yaxşı ünsiyyət qurmağa kömək edəcək:

**Sinfə tez gəlməyə çalışın.** Ünsiyyət siz və şagirdlərinizin eyni sinifdə olduğu zaman başlayır. Bəzi müəllimlər bəlkə də çoxsaylı uşaqlara dərs deməkdən çəkindiyi, yaxud digər prioritetləri olduğu üçün dərsin başlanması nəzərdə tutulan vaxtda və ya tam başladıqdan sonra gəlir. Dərsə gec gəlmək və ya tələsmək şagirdlərə sizin onlara dərs deməkdə həvəsli olmadığınıza dair mesaj yollayır. Artıq dərs başlamadan siz onların marağını itirirsiniz. Belə ki, dərsə tez gəlmək çoxsaylı şagirdlərinizin diqqətini, marağını öz üzərinizə toplamaqdan əvvəl sizə asanlıqla dərsə hazırlaşmağa və rahatlanmağa imkan verir. Əlavə olaraq, sinfə 10 dəqiqə tez gəldikdə şagirdlərinizin əksəriyyətinin də tez gəldiyini aşkar edəcəksiniz. Nəticədə eyni vaxtda çox şagirdin gəlməsi zamanı yaranan dağınıqlıq və çaşqınlığın qarşısı alınacaq.

18. Preparing to Teach the Large Lecture Course. Tools for Teaching. University of California, Berkeley. www.teaching.berkeley.edu/bgd/largelecture.html [accessed online on 10/6/2005]

**Dərsin başlanğıcında tələbələrinizin diqqətini qazanın.** Dərsə başlayanda birinci çətinlik hamının diqqətini özünüzə və keçəcəyiniz mövzuya yönəltməkdir. Burada lazım olan şey "diqqət cəlb edən amil"dir. Diqqət cəlb edən amilin təmtəraqlı hərəkət və ya fəaliyyət olmasına ehtiyac yoxdur. Bu auditoriyaya maraqlı sualın verilməsi ilə şagirdlərdən onu cavablandırması və ya maraqlı ifadəni səsləndirərək rəylərini bildirməsinin xahiş edilməsi kimi sadə ola bilər. Məsələn, peşələri müzakirə etdikdə və burada gender məsələsini vurğulamaq istədikdə dərsi bu cümlə ilə başlaya bilərsiniz: "Bugün məktəbə gələndə valideynlərinizin çoxunu iş başında gördüm. Analarınızın evlərinizi təmizləyib yemək bişirdiyini gördüyüm halda, atalarınızın zəmiyə getdiyini müşahidə etdim. Niyə analarız ev işlərini və atalarınız çöl işlərini görürlər? Niyə atalarınız evləri təmizləyib analarınız çöl işlərini görmür?". Daha balaca şagirdlərə isə "Ən sevimli oyuncağınız hansıdır? Sinifdə neçə oğlan gəlincik ilə oynamağı sevir? Sinifdə neçə qız maşınla oynamağı sevir? Bu oyuncaqları niyə sevirsiniz?" suallarını vermək olar. Fəsillər və mövsümi meyvələri keçdikdə növbəti sual nümunəsi yardımınıza çata bilər: "Qarpız danışa bilsəydi harada, necə əkildiyi və toplandığına dair nə deyərdi?" Elmi dərs keçdikdə isə şagirdlərinizdən günün mövzusunun prinsiplərini nümayiş etdirən alət və ya qurğu gətirməyi xahiş edə bilərsiniz. Şagirdlərdən ailəsinin bu alətdən necə istifadə etdiyini soruşun. Dərsi başlamaq üçün bu məlumatdan istifadə edərək şagirdlərinizin diqqətini çəkin və saxlamağa çalışın.

**Dərsin başlanğıcında, dərs vaxtı və sonunda vacib məlumat qeyd edin.** Çoxuşaqlı siniflərdə bəzi şagirdlərin dərs üçün hansı məlumatın vacib olduğunu eşitməmək və ya bilməmək ehtimalı böyükdür. Bundan əlavə, tədqiqatlar göstərir ki, şagirdlər dərsin əvvəlində deyilən məlumatı daha yaxşı yadda saxlayırlar. Dərs davam etdikcə onların yadda saxlamaq qabiliyyəti daha da azalır və onlar dərsin sonunu gözlədiyinə görə dərsin sonuna doğru nisbətən artır.[19] Çoxuşaqlı siniflərdə hansı məlumatın vacib olduğunu mümkün qədər tez bildirmək çox mühüm əhəmiyyət kəsb edir. Dərsin başlanğıcında və çox ehtimal ki, "diqqət cəlbedicisindən" sonra bəzi müəllimlər anlayış və ya fikri təqdim etməzdən öncə onun vacibliyini qeyd edir; məsələn, "Bu çox vacibdir və hamınızın diqqəti məndə olsun. Hamı hazırdımı?" deyə bilər. Hamının görməsi üçün vacib bəndlərin lövhədə qeyd edilməsi bütün şagirdlərlə ünsiyyət qurulmasına kömək edir. Vacib bəndləri dərs boyu bir neçə dəfə başqa sözlərlə ifadə etməyə çalışın çünki yalnız bir cür izahat bütün şa-

19. Ericksen, S. C. The LECTURE. Ann Arbor: Center for Research on Teaching and Learning, University of Michigan, 1978.

girdlər üçün aydın olmayacaq. Dərsin və ya mühazirənin sonunda vacib fikirləri ümumiləşdirmək üçün "Burada yadda saxlayacağınız ən vacib şey..." demək də çox yardımçı olur. Dərsin sonunda öyrənmə məqsədlərini möhkəmləndirən fəaliyyət və ya müzakirə də aparıla bilər. Məsələn, çoxuşaqlı siniflərdə öyrəndiklərini nümayiş etdirmək, suallar vermək, eləcə də onlar və yaşıdlarının necə yaxşı öyrənə biləcəklərini bildirmək üçün dərsin sonunda təsadüfi seçim əsasında 5-10 şagird seçin.

**Münasib nümunələrdən istifadə edin.** Dərs dediyiniz zaman dərslikdəki məlumatdan daha çox məlumat verməlisiniz. Belə ki, dərsləriniz dərslikdəki anlayışları real nümunələrlə təsvirinizə əsaslanmalıdır. Araşdırmalar göstərir ki, effektiv müəllimin ən vacib xarakteristikası mürəkkəb anlayışları və konsepsiyaları nümunələrdən istifadə edərək şagirdlərin başa düşəcəyi şəkildə onlara çatdırmaq bacarığıdır. [20] Şagirdlərin təcrübələrinə əsaslanan və ya onların gündəlik həyatlarına uyğun nümunələrdən istifadə edin. Məsələn, konkret meyvə və ya məhsulların yetişməsini fəsildəki dəyişikliklərlə əlaqələndirərək sonra bu əlaqəni dəyişən hava şəraitinə bağlayın. Təkrarlanan xarakterli müxtəlif obyektlər kimi eyni hadisəni təsvir etmək üçün müxtəlif nümunələrdən istifadə edin. Müxtəlif nümunələrdən istifadə etdikdə hər bir şagirdin dərsi başa düşməsi şansı artır. Hətta vacib konsept və ya obrazları bədiiləşdirə də bilərsiniz. Məsələn, ürək haqqında danışdıqda onu yumruğunuzun ölçüsü ilə müqayisə edin.

***Yadda saxlayın: Nümunələrin düzgün seçilməsi çox mühüm əhəmiyyət kəsb edir. Nümunələr hadisələrə əsaslananda (real hadisə və ya şəxsiyyətlə əlaqəli qısa, əyləncəli hadisə olduqda), eləcə də şəxsi, məsələ ilə əlaqəli və ya gülməli olduqda şagirdləriniz onu yadda saxlayacaq, sizə diqqətlə qulaq asacaq.***

**Müxtəlif tədris üslublarından istifadə edin.** Şagirdlər irsi amillər, təcrübə, ətraf mühit və ya şəxsi xüsusiyyətlərinə görə müxtəlif yollarla öyrənir. İllər boyu aparılan müşahidələrə əsasən şagirdlərin 30%-nin nəyisə eşitdikdə, 33%-nin nəyisə gördükdə və 37%-nin isə hərəkətlər vasitəsilə dərsi yaxşı öyrənməsini aşkar etmişik. Köhnə atalar sözündə deyildiyi kimi "Eşitdim və unutdum. Gördüm və yadda saxladım. Etdim və başa düşdüm."[21] Bu çox vacibdir! Bu o deməkdir ki, şagirdlərimizi yalnız bizə qulaq asmaqla

20. Preparing to Teach the Large Lecture Course. Tools for Teaching. University of California, Berkeley. www.teaching.berkeley.edu/bgd/largelecture.html [accessed online on 10/6/2005]

21. Booklet 4: Creating Inclusive, Learning-Friendly Classrooms. Embracing Diversity: Toolkit for Creating Inclusive, Learning-Friendly Environments. Bangkok: UNESCO, 2004.

öyrətmək istəsək onların yalnız üçdə biri nəsə öyrənəcək. Onlardan qeyd kitabçalarında nəyisə yazmağı xahiş etdikdə də eyni vəziyyətlə üzləşəcəyik. Beləliklə, inşa, məsələ həlli, cizgilər, oyunlar, musiqi, qrup və fərdi işlər və s. kimi öyrənənlərə digər seçimləri verən müxtəlif informasiya mübadiləsi yollarından istifadə edilməsi çox vacibdir.

## Müxtəlif tədris üsullarından istifadə edilməsi

Aşağıda sadalanan geniş çeşidli öyrənmə metodları və öyrənmə təcrübələrinin tətbiqi zamanı çoxuşaqlı siniflərdəki şagirdlərin öyrənmə potensialı daha da artacaq və onlar daha diqqətli olacaqlar. Metodların heç biri ən yaxşı metod hesab olunmur – onlar qarşılıqlı şəkildə bir-biri ilə əlaqəlidir.

## Mühazirələr

Mühazirə oxunması ən qədim və hələ də ən çox istifadə edilən tədris üsulu olmaqla bərabər çoxuşaqlı siniflərdə ən çox istifadə edilən üsullardan biridir. Sözügedən üsulun bir neçə üstünlükləri və eləcə də mənfi cəhətləri var.[22] Üstünlüklərə aşağıdakılar daxildir:

- Mühazirələr dərs deyilən fənnin maraqlı aspektlərini aktiv şəkildə əlaqələndirə bilər. Müəllim bu yolla heç bir kitab, media və ya fəaliyyətin verə bilməyəcəyi tərzdə öz şəxsi həyəcan və coşqunluğunu ötürə bilər. Həyəcan və coşqunluq şagirdlərdə maraq oyadaraq onları daha çox öyrənməyə sövq edir.
- Mühazirələr materialları xüsusi yolla təşkil etməkdə istifadə edilə bilər. Onlar məlumatın şagirdlərə təqdim edilməsinin ən sürətli və sadə yolu ola bilər. Xüsusilə, mühazirələr pis oxuma qabiliyyəti olan və ya çap materiallarını yaxşı mənimsəyə bilməyən şagirdlər üçün çox faydalıdır.
- Mühazirə maksimal dərəcədə müəllimin nəzarətinə icazə verir. Bu format müəllimə dərsin gedişatı və təqdim olunan materialların düzgünlüyünə, çeşidinə nəzarət etməyə imkan yaradır.

Mühazirələr məhdud vaxt çərçivəsində böyük həcmdə faktiki məlumatı ötürə bilir.

- Mühazirələr eyni anda çoxsaylı dinləyicilərlə danışa bilər.

22. Modes of Teaching. http://ftad.osu.edu/Publications/TeachingHandbook/chap− 5.pdf#-search='5%3A%20%20Modes%20of%20Teaching' [accessed online on 2/6/2006]

- Mühazirələr şagirdlər üçün minimum təhlükə yaradır, çünki seçim edəcəkləri bir şey etmək tələb olunmur.
- Mühazirələr dinləməklə öyrənməyi vurğulayır, belə ki, bu üsul sözügedən yolla yaxşı öyrənən şagirdlər üçün üstünlükdür.

Tədqiqatçılar və günü-gündən sayı artan müəllimlər ənənəvi mühazirələrin aşağıdakı çatışmazlıqlarını müəyyən etmişdir:

- Mühazirələr şagirdləri aktiv deyil, passiv rolda saxlamaqla yanaşı düşünmək və ya baxışların dəyişdirilməsi kimi aktiv öyrənmənin təşviq edilməsində daha az effektivdir.
- Mühazirələr bir istiqamətli ünsiyyəti təşviq edir. Onlar nə müəllim, nə də şagirdə şagirdin öyrənməsinə dair əks əlaqəni təmin etmir.
- Mühazirələr adətən pedaqoji hazırlıq üzrə tədris proqramında vurğulanmayan effektiv danışıq və səsdən istifadə qabiliyyəti tələb edir.
- Mühazirələr, şagirdlərin iştirakı olmadan (və az öyrənmə ilə) məzmunun təşkil olunması və sintez edilməsinin yükünü yalnız müəllimin üzərinə qoyur.
- Mühazirələr bütün şagirdlərin eyni yolla, eyni tempdə və eyni səviyyədə anlamaqla öyrəndiyini nəzərdə tutur, lakin bu həqiqəti əks etdirmir.
- Mühazirələr adətən tez unudulur. Şagirdlərin əksər hissəsi uzun mühazirələri effektiv şəkildə dinləyə bilmir (15 dəqiqədən uzun olduqda).

Çoxuşaqlı sinifə mühazirə deməyi seçdikdə aşağıdakı bəndləri yadda saxlayın. Bu bəndlərin bəziləri əvvəlki səhifələrdə izah edilmişdir, lakin bir-biri üzərində qurulduğundan onları yenidən qeyd etmək məqsədəuyğun olardı.[23]

- Təlim materiallarınız ilə rahat və sərbəst davranın.
- Arada şagirdlərə çalışmaların verilməsi ilə dəstəklənən qısa mini-mühazirələr planlayın.
- Mühazirənin başlanğıcında dərs saatının sonunda cavablandırılacaq

23. Modes of Teaching. http://ftad.osu.edu/Publications/TeachingHandbook/chap- 5.pdf#search='5%3A%20%20Modes%20of%20Teaching' [accessed online on 2/6/2006]

sual verin və ya müşahidə etdiyiniz hadisə və ya gülməli əhvalat kimi digər "diqqət çəkən amil"dən istifadə edin.

- Mühazirənin ümumi icmalını təqdim edin (və yaxud onun öyrənmə məqsədlərini). Müzakirə ediləcək əsas məqamları lövhədə və ya posterdə sadalayın. Bu sizin mühazirənin "yol xəritəsi" olacaq və şagirdləriniz ona mühazirə kimi istinad edə bilər.
- Mühazirə mövzusunun real həyat və şagirdlərin gündəlik həyatları, o cümlədən əvvəlki mühazirə və materiallarla necə əlaqəli olduğuna dair məlumat verərək izah edin.
- Mühazirənizi maraqlı tərzdə təqdim edin. Bir çox şagirdlər üçün maraqlı və yadda qalan mühazirələr effektiv təqdimat bacarıqları olan müəllimlər tərəfindən təqdim olunanlardır. Bu müəllimlər:
- Səsinin tonunu dəyişir (səsin tonunu aşağı və yuxarı edir), tələffüzü aydındır və müvafiq tempdə danışır (yavaşlamaq və vacib şeyləri vurğulamaq kimi).
- İlk imkanda masasından durub sıralar arasında gəzir və şagirdlərə yaxın olur.
- Lövhə, divar, qeydlər və ya döşəmə ilə deyil şagirdlərlə danışır, göz təması qurur.
- Dərs və ya mövzuya marağını göstərmək üçün yumor və ya digər metodlardan istifadə edir.
- Şagirdlərdən fikirlərini bildirməsini xahiş edin və onların rəylərinə aşağıdakı tərzdə cavab verin:
- Mühazirə zamanı şagirdlərin diqqətli olması, başa düşməsi və ya sizinlə razı olub-olmamasını göstərən sözlə ifadə edilməyən ipuclarını müəyyən etmək üçün onlarla göz təmasını saxlayın;
- "Gündəlik həyatda riyaziyyatdan nə vaxt istifadə etdiyimizi deyə bilərsinizmi?" kimi özünəməxsus suallar verməklə cavabların verilməsini təşviq edə bilərsiniz;
- Müxtəlif cavabların verilməsi üçün şagirdlərdən əllərini qaldırmağı xahiş edin və ya müxtəlif rəngli vərəqələr paylamaqla hətta çoxuşaqlı siniflərdə belə şagirdlərin iştirakını təmin edin. Bu adətən düzgün

cavab verən şagirdin çağırılması və ondan cavabın izah edilməsi xahiş etmək yolu ilə daha səmərəli olur;

- Tərifləyin. Şagirdlər layiq olduqda müsbət rəylərin bildirilməsi öyrənmə prosesini sürətləndirəcək.
- Mühazirənin sonunda əsas məqamları yenidən qeyd edin və ya şagirddən mühazirənin əsas konseptlərini ümumiləşdirməsini xahiş edin (bu sizi nəyin öyrənildiyi və nəyin yadda qalmadığına dair dərhal məlumatlandıraraq növbəti mühazirənizi təkmilləşdirməyə kömək edəcək).
- Şifahi cavabların verilməsini xahiş edərək və ya dərsin əvvəlində paylanan və sonunda yığılan anonim sorğu vasitəsilə şagirdlərinizi suallar və iradlarının bildirilməsinə səsləyin.[24]

## Aktiv öyrənmə strategiyaları

**Sən dedin, mən dinlədim.**

**Sən göstərdin, mən anladım.**

**Özüm etdim, anladım.**

***Teton Lakota hindlisi***[25]

Aktiv öyrənmə passiv dinləmə ilə müqayisədə şagirdlərin çalışmalar etməyə cəlb olunduğu və nə etdiklərinə dair düşüncələrini özündə əks etdirən prosesdir. Bu proses zamanı məlumatın müəllimdən şagirdə ötürülməsinə (məsələn mühazirə kimi) daha az vurğu, habelə şagirdin tənqidi və analitik düşünmək bacarığının inkişafı, eləcə də kurs materialına dair münasibət və dəyərlərin aşkar edilməsinə daha çox vurğu edilir. Aktiv öyrənmədə həm şagird, həm də müəllim öyrənmə prosesində iştirak etməklə yanaşı hər iki

24. Preston, J. A. and Shackelford, R. A System for Improving Distance and LargeScale Classes. Georgia Institute of Technology. http://cims.clayton.edu/jpreston/Pubs/ iticse98.htm [accessed online on 10/6/2005]

25. Qeyd: Developing Thinking in Large Classes. Teaching Technologies, Center for University Teaching, University of Ottawa, July 1997. www.uottawa.ca/academic/ cut/options/July_97/Opt_thinking.htm [accessed online on 19/7/2005]

iştirakçı daha çox və daha sürətlə geri bildirim ala bilir.[26]

Çoxsaylı araşdırmalar şagirdlərin öyrənməsinin təkmilləşməsində, yadda saxlama qabiliyyəti və tətbiqetmənin artması, o cümlədən davamlı öyrənmənin təşviq edilməsində aktiv öyrənmənin əhəmiyyətini göstərir.[27] Çoxuşaqlı siniflərdə adətən müəllimlər tədris üsullarını mühazirələrin deyilməsi ilə məhdudlaşdırmağa meyllidir, belə ki, bu formal yolla edildikdə əsasən passiv qalan şagirdlərdən çox az səy göstərməsi tələb olunur. Özü-özlüyündə mühazirələrin deyilməsi pis üsul deyil, lakin şagirdlər müxtəlif yollarla öyrəndikləri üçün onların aktiv iştirakı öyrənməni sürətləndirir. Məhz bu səbəbdən tədris və aktiv öyrənmə üçün müxtəlif növ strategiyalardan istifadə edilməlidir. Sinif tapşırıqları və qrup çalışmaları kimi aktiv öyrənmə fəaliyyətlərinin dərsə daxil edilməsi vasitəsilə mühazirələrin effektivliyini artıra bilərsiniz.

## Sinif tapşırıqları

Kiçik (azuşaqlı) siniflərdə sualların verilməsi, cavablandırılması, məsələlərin müzakirəsi, yumoristik, kontekstə müvafiq və ya real hadisələrlə bağlı zarafatlara gülməsi kimi fəaliyyətlərdə şagirdlərin iştirakına nail ola bilərsiniz. Lakin çoxuşaqlı siniflərdə 60 və ya daha çox sinif yoldaşının qarşısında şagirdlərin əksəriyyətini danışmağa məcbur etməkdə çox ehtimal ki, çətinliklə üzləşəcəksiniz – bu vəziyyət onlarda həddən artıq qorxu və vahimə hissi yaradır. Məhz burada müxtəlif yanaşmaya ehtiyac duyulur. Sizin arxalana biləcəyiniz üsul sinif tapşırıqlarıdır.

Mövzu barədə mühazirə dedikdə və ya məsələnin həllini izah etdikdə sualı birbaşa olaraq bütünlükdə sinfə ünvanlamaqla vaxt itkisinə səbəb olan sakitliklə üz-üzə qalmaq əvəzinə arabir sinfə tapşırıqlar verin, şagirdlərinizin sizə cavabı təqdim etməsi üçün 30 saniyədən 5 dəqiqəyə qədər vaxt ayırın. Sinif tapşırıqları üçün istənilən şey əsas kimi istifadə edilə bilər. Məsələn, məsələni elan edin və şagirdlərinizdən aşağıda sadalananları xahiş edin:

- Xəritə, diaqram və ya sxem çəkin, işarələyin;
- Məsələni necə həll edə biləcəyiniz və ya düzgün cavabın nə olduğunu,

26. Implementing Active Learning. Houghton Mifflin College Division. Online Teaching Center http://college.hmco.com/psychology/brehm/social_psychology/6e/ instructors/active_learning.html [accessed online on 2/6/2006]
27. Frederick, P.J. "Student Involvement: Active Learning in Large Classes" in Weimer, M (Ed.), Teaching Large Classes Well: New Direction in Teaching and Learning. San Francisco: Jossey–Bass Inc., 1987.

eləcə də nə üçün belə düşündüyüzü izah edən sxemi təqdim edin;

- Konseptin necə və nə üçün gündəlik həyatda faydalı olduğunu sadalayın;
- Vəziyyətdən asılı olaraq konkret həllin düzgün və ya səhv olmasına dair beyin hücumu edin.

Sizin dərsdə edə biləcəyiniz digər sinif çalışmalarına aşağıdakılar daxildir:[28]

- Azyaşlı uşaqlara "dəqiqəlik yazı" və ya "dəqiqəlik şəkil" kimi qısa sinif yazı tapşırıqları verməklə seçilmiş şagirdlərin yazdıqlarını yüksək səslə oxuması və ya onların rəsmlərini hamıya nümayiş etdirərək müzakirələrin təşviq edilməsi.
- Şagirdlər tərəfindən hazırlanan və ya təqdim edilən əvvəlki mühazirə, mütaliə və sairə dair şifahi icmal.
- Sinif müzakirəsini başlamaq üçün şagirdlərdən nə başa düşdüklərini soruşmaq.
- Sinfin dərsi başa düşməsini qiymətləndirmək üçün sorğu, anket və formativ (qiymətləndirilməyən) testlərin tətbiqi.
- Mühazirənin mövzusunun real həyatda necə istifadə edilməsinə dair hesabatlar.
- Şagirdlərin  mühazirə materiallarına dair imtahan suallarını yazması.
- Şagirdin məsələni, şeiri, şəkili və sairi təhlil etməsi.
- Şagirdlərin məsələləri həll etməsinin ardınca bir-birinin işini qiymətləndirməsi.
- Mühazirənin məğzini əks etdirən vizual materiallar.

Çoxuşaqlı siniflərdə bu spontan sinif tapşırıqları insanların öyrəndikləri əsas iki yolun - şagirdlərin fəaliyyəti və öyrəndiklərini əks etdirməsinin inkişafına səbəb olur. Bu üsulu müntəzəm əsasda, lakin gözlənilməyən anda istifadə etdikdə hər bir şagird sizə qulaq asacaq, çünki onlar sizin nə vaxt tapşırıq verəcəyinizi bilməyəcəklər. Habelə bu metod sizi şagirdlərinizin təqdim etdiyiniz məlumatı başa düşüb-düşməməsinə dair dərhal geri bildirimlə təmin

28. Bonwell, C. C. Active Learning: Creating Excitement in the Classroom. St Louis: Center for Teaching and Learning, St. Louis College of Pharmacy, 1995.

edəcək. Əgər proses uğurla həyata keçirilərsə bu "ev tapşırığı" və gecələr yuxusuz qalaraq çoxsaylı vərəqələrin qiymətləndirilməsini əvəz edə bilər.

***Yadda saxlayın: İstifadə etdiyiniz sinif tapşırıqlarının növündən asılı olmayaraq ayrı-ayrı şagirdlərin öz cavablarını təqdim etməsini təşviq etməlisiniz. Bunu etmədikdə şagirdlər verdiyiniz tapşırıq üzərində işləmək üçün az təşəbbüs göstərəcək və baziləri heç bunu etməyəcək. Lakin sizin onları səsləyəcəyinizi bilsələr xəcalət çəkməmək üçün hazırlaşacaqlar və nəticədə tədris etdiyiniz mövzuda sinfin 90 faizindən çoxunu aktiv öyrənməyə cəlb etmiş olacaqsınız.*** [29]

## Qrup çalışmaları və birgə öyrənmənin məqsədləri, fəaliyyətləri və quruluşu

Qrup çalışmaları sinif və ya sinifdənkənar tapşırıqlar kimi icra edilə bilər və sözügedən üsul çoxuşaqlı sinifdə şagirdlərin aktiv öyrənməsini təmin etməyin ən yaxşı yollarından biridir. Burada şagirdlər müzakirə etmək və ya məsələni həll etmək üçün birlikdə çalışırlar ki, bu proses kollektiv, yaxud birgə öyrənmə də adlanır. Çoxuşaqlı siniflərdə cüt-cüt və ya daha böyük qruplarda çalışan şagirdlər bir-birinə kömək etməklə yanaşı həm də bir-birindən öyrənirlər. Onlar müəllimin danışdığına qulaq asmaqdan bezmirlər. Qrup çalışmaları şagirdlərə icma hissi və anlayışının yaradılmasına doğru birinci yaxşı addım kimi bir-biri ilə tanış olmağa və birlikdə çalışmağa imkan yaradır. Əlavə olaraq, "real" həyatda digərləri ilə işləməyi öyrənmək çox mühüm bacarıqdır. Şagirdlərin birlikdə işləmək imkanlarının artırılması onlara bu bacarığın inkişaf etdirilməsinə dəstək ola bilər. Habelə kiçik qrup işləri çoxuşaqlı sinifdə dərsdə iştirak etməkdə istəksiz olan uşaqları aktiv öyrənənlərə çevirə bilər. Həmçinin birgə öyrənmə şagirdlərin diqqətini artırmağa, çoxuşaqlı siniflərə xüsusi diqqət ayırmağa və şagirdlərin təfəkkürünün təkmilləşdirilməsinə kömək edir.

Çoxuşaqlı siniflərdə kiçik qruplardan istifadə edilməsinin üç əsas məqsədi vardır:[30]

1. Dərs vaxtı daha çox şagirdin düşünməsinə, aktiv iştirakına, o cümlədən mətn ya da, mövzuya dair daha çox ideyalar toplamasına səbəb olan enerji və qarşılıqlı təsirin təmin edilməsi.

---

29. Felder, R. Beating the Numbers Game: Effective Teaching in Large Classes. North Carolina State University, 1997.
www.ncsu.edu/felder-public/Papers/Largeclasses. htm [accessed online on 10/7/2005]
30. Developing Thinking in Large Classes. Ottawa: Center for University Teaching, University of Ottawa, July 1997.

2. Müəllimin otaqda hərəkət edən zaman daha çox uşaqla ünsiyyət qurmasına imkan yaradır.

3. Növbəti 20 dəqiqəni müəllimin mühazirəsini daha diqqətlə dinləməsi üçün şagirdləri qısa tənəffüs və enerji axını ilə təmin edir.

Sadalanan üç məqsədə nail olmaq və çoxuşaqlı siniflərdə müxtəlif öyrənmə məqsədlərinə töhfə vermək üçün siz üç əsas növ qrup çalışmalarından istifadə edə bilərsiniz.[31]

1. **Koqnitiv inkişaf tapşırıqları.** Şagirdlərdən ibarət qrupları real və ya yalandan uydurulmuş vəziyyətlərə salaraq onlardan problemi həll etməyi xahiş edin. Alternativ olaraq, lövhədə səhvlərə yol verdiyiniz sual və ya ifadə yazın. Bu səhvlər struktur (məsələn, qrammatik səhvlər) və ya şərh səhvləri (məsələn, faktların istifadə edilməsi və ya mühakimə səhvi) ola bilər. Şagirdlərin anlayacağı dildə və anlayışlardan istifadə edərək onlardan kiçik qruplarda işləməyi, eləcə də problem və ya səhvi təsvir etməyi (göstərilmədiyi təqdirdə), onun səbəblərini təhlil etməyi (diaqnoz), bu səbəblərin nə üçün mövcud olmasının müəyyən olunmasını (izah edilməsi və təhlil) və hansı həllərin təqdim edilə biləcəyini soruşun. Məsələn, riyaziyyat dərsində şagird qruplarına həll etmək üçün "süjet şəklində məsələ" verə bilərsiniz; təbiət dərsində şagirdlərdən zahirən əlaqəsi olmayan əşyaları ayrı-ayrı qruplara bölməsini və bu bölgünü nəyə əsaslanaraq apardıqlarını izah etməsini xahiş edin.

2. **Tədqiqat mövzusu üzrə tapşırıqlar.** Hər qrupa tədqiq etmək (araşdırmaq) üçün konkret mövzunu tapşıraraq onların bu barədə mühüm məlumatlar öyrənəcəyi resurslara əlçatanlığını təmin edin. Bu resurslar kitablar və ya konkret fəaliyyətin necə həyata keçiriləcəyini (ənənəvi rəqs və mahnı kimi) və ya konkret əşyanın necə düzəldiləcəyini bilən icma nümayəndəsi ola bilər. Qruplar hazır olduqda öyrəndiklərini sinfə öyrətmək üçün birlikdə hazırlanmış təqdimatı sinifin diqqətinə çatdırırlar.

3. **Psixomotor (hərəki inkişaf) tapşırıqları.** Bu tapşırıqlar rəsm çəkmək, düzəlişlər etmək, sürətli məsələ həlli və s. kimi xüsusi bacarıqların inkişafı üzərində fokuslanır. Şagirdlər qruplar şəklində məşq

31. Large Classes: A Teaching Guide – Collaborative/Cooperative Learning. Center for Teaching Excellence, University of Maryland, 2005. www.cte.umd.edu/library/large/ coll. html [accessed online on 10/7/2005]

edir və qrup yoldaşları tərəfindən tənqid olunur. Tapşırığın sonunda könüllülər yeni qazandığı bacarıqları sinfə nümayiş etdirir.

Qrup tapşırıqlarını (və hətta fərdi tapşırıqlar üçün də) hazırladığınız zaman şagirdlərin tamamlaması gərəkən tapşırıqlar konkret və aydın olmalıdır. İşçi cədvəlin doldurulması, məsələnin həlli və ya konkret sualın cavablandırılması kimi konkret tapşırıqlar şagirdlərinizi məqsədyönlü davranmağa sövq edəcək.

Tapşırığınız aydın olduğu kimi qruplara verdiyiniz təlimatlar da aydın olmalıdır və onları tapşırığı tamamlamağa yönəltməlidir. İmkan daxilində onlara yekun məhsulun necə olmasına dair məlumat verin (bəzən burada nümunələr çox yardımçı olur). Tapşırığa müvafiq və qrupların məqsədəyönlü qalmasına kömək edən vaxt limitinin seçilməsini təmin edin. Məsələn, qrupa müraciət edərək deyə bilərsiniz ki, "4 və ya 5 nəfərdən ibarət qruplarda valideynlərinizin yetişdirdiyi düyünü bazarda satması kimi gündəlik həyatda əhəmiyyət kəsb edən rəqəmlərin vurulması bacarığına dair 4 və ya 5 nümunə göstərin. Tapşırığınızı tamamlamaq üçün 10 dəqiqəniz var." Hər bir qrupda bir nəfərin nəticələri qeyd etməsini xahiş edin. Vaxt bitdikdən və ya bütün qruplar işini tamamladıqdan sonra təsadüfi seçimlə nəticələrini təqdim etmək üçün 5 və ya 8 qrup seçin. Bundan sonra digər qruplardan artıq təqdim olunan nəticələrə əlavə etmək üçün digər cavablarının olub-olmadığını soruşun.

Hər bir qrup üzvünün digərləri ilə əlaqəli olacaq xüsusi tapşırığının olduğu qrup tapşırığı planlaşdırın. Hətta hər bir qrup üzvünə ona verilən tapşırığı yerinə yetirməyə və müəyyən tarixə qədər bitirməyə razılıq verdikləri müqavilə də imzalatdıra bilərsiniz.

Çoxuşaqlı sinfə dərs deməyin çətinliklərindən biri də yetərincə kitab, tədris və ya təlim vəsaitlərinin olmamasıdır. Buna baxmayaraq qrup tapşırıqları sizə az sayda kitabla və ya hətta bir dərsliklə idarə etməyə kömək edə bilər. Qrup tapşırıqlarınızı hazırlayan zaman yalnız bir dərs kitabı olduqda istifadə edə biləcəyiniz müxtəlif fəaliyyətlər planlaşdırın.

Qrup tapşırıqlarının icrası zamanı qrupları şagirdin bacarıqlarına uyğun təşkil edin. Çoxuşaqlı siniflərin müəllimləri müxtəlif strategiyaları sınaqdan keçirir.

- **Qarışıq qabiliyyətli qruplar**. Qrupda daha bacarıqlı olanlar bəzi hissələri müəllim öyrətməsin deyə digərlərinə işin mənimsənilməsinə kömək edə bilər.

- **Eyni bacarıqları olan qruplar.** Müəllim daha sürətli öyrənənlər qrupuna özləri öz işlərini görməsi üçün şərait yarada bilər. O, daha yavaş öyrənənlər qrupunda fərdi öyrənənlərə əlavə kömək edə bilər.
- **Qrup liderləri/nəzarətçiləri.** Bəzi müəllimlər daha sürətli və bacarıqlı öyrənənləri nisbətən yavaş öyrənənlərə kömək etmək üçün qrup liderləri yaxud nəzarətçiləri təyin edirlər.

Qruplara özünüz nəzarət edin. Qrup işi əsnasında şagirdlərin hansı irəliləyişlərə nail olduqları və hansı problemlərin yarandığını görmək üçün sinifdə gəzməyinizə ehtiyac duyulur. Lazım olduqda məsləhət verə, həvəsləndirə və ya əlavə fərdi kömək göstərə bilərsiniz.[32]

## Qiymətləndirmə

Hamının tapşırıq üzərində işlədiyini və ondan öyrəndiyini bilməklə qrup tapşırıqlarının qiymətləndirilməsinin bir neçə yolu var; məsələn:[33]

1. Tapşırıqlar üzrə qiymətləndirmək mümkün olan bir növ qrup məhsulunun təqdim edilməsini tələb edin.

   Yadda saxlayın: 10 işin qiymətləndirilməsi 60 işin qiymətləndirilməsi ilə müqayisədə çox asandır.

2. Qruplar və onların üzvlərini diqqətlə müşahidə edin. Fərdi iştirak, eləcə də ümumi qrup işinin keyfiyyətini qiymətləndirin.

3. Bəzən tapşırıq zamanı öyrənilən məsələyə dair bir dəqiqəlik məruzə, qısa test və ya təsadüfən seçilmiş qrup üzvləri tərəfindən şifahi təqdimat kimi qrup işinə əsaslanan fərdi məhsul tələb edin. Bu qrup öyrənməsində fəal şəkildə iştirak edən şagirdlərin qiymətləndirilməsinə şərait yaratmaqla yanaşı bəzi qrup üzvlərinin iştirak etməməsini və ya heç bir iş görmədən qrupa "yüklənməsinin" qarşısını alır.

4. Tapşırığın sonunda yaşıdların qiymətləndirməsindən istifadə edin; məsələn, qrupdakı hər bir şagirdə "qiymət vərəqəsi" verərək hər bir qrup üzvünü qiymətləndirməsini xahiş edin. Şagirdlərin vərəqələri fərdi və müstəqil şəkildə, eləcə də digər qrup üzvlərinin nəzarəti

32. Teaching Large Classes. Teachers in Action, BBC World Service / OLSET. http:// www.teachingenglish.org.uk/think/methodology/large_classes.shtml#discipline
33. Dion, L. "But I Teach a Large Class," in: A Newsletter of the Center for Teaching Effectiveness, Spring 1996, University of Delaware. www.udel.edu/pbl/cte/spr96– bisc2.html [accessed online on 10/6/2005]

olmadan doldurduqlarına əmin olun. Bu metod çoxuşaqlı sinifdə qrup üzvlərinin ümumi işə verdiyi nisbi töhfəsini müəyyən etmək üçün xüsusilə faydalıdır, belə ki, hamını fərdi şəkildə qiymətləndirmək sizə çox çətin ola bilər.

## Digər aktiv öyrənmə strategiyaları

Çoxuşaqlı siniflərdə istifadə edə biləcəyiniz bir sıra digər aktiv öyrənmə strategiyaları var. Bütün şagirdlərinizin xüsusilə fərdi cavabların verilməsini tələb edənlər daxil olmaqla bu fəaliyyətlərin hamısında iştirak etməsinə ehtiyac duyulmur; çoxuşaqlı siniflərdə buna kifayət qədər vaxt olmaya bilər. Lakin bütün şagirdlərinizə onların bir çoxunda iştirak etmək şansı verilməlidir. Əsas çətinlik dərsiniz üçün nəzərdə tutduğunuz məqsəd və ya vəzifəyə uyğun gələn fəaliyyət növünün seçilməsidir.[34]

**Dairə.** Hər bir şagirdə verilmiş mövzu üzrə fikrini paylaşmaq üçün 2 və ya 3 dəqiqə verilir. Bu zaman digər şagirdlər qulaq asır. Daha böyük şagirdlər üçün mövzu "Təhsil gündəlik həyatım üçün dəyərlidir" kimi mübahisəli və düşündürücü ola bilər. Daha gənc şagirdlər üçün "Məktəbdə nəyi sevirəm" kimi sadə mövzu seçmək olar. Bu fəaliyyət sizə dərslərinizin keçilməsində nəzərə ala biləcəyiniz bir sıra baxış bucaqlarını ortaya çıxaracaq, o cümlədən şagirdləriniz arasında "təhlükəsiz iştirak" və əminlik hissi yaradacaq.

**Beyin həmləsi.** Şagirdlərdən "Su qıtlığının yaranması səbəbi nədir?" yaxud "Məktəbimizi necə inkişaf etdirə bilərik?" kimi məsələ və ya problem barədə fərdi şəkildə düşünməyi, mümkün səbəb və nəticələrin siyahısını hazırlamağı xahiş edin. Fərdləri qruplara ayırın və onlardan fikir mübadiləsi etməklə mümkün cavabların siyahısını hazırlamağı tapşırın. Birlikdə işləyən insanların tək bir fərddən daha çox şey yarada biləcəyini vurğulayın.

**Simulyasiya və oyunlar.** Şagirdlərdən ixtiyari vəziyyətə dair rol oyunu həyata keçirməsini xahiş edin; məsələn, "Bir xuliqanla rastlaşsanız nə edərdiniz? Onlar nə edərdi?". Bir anlıq gerçək olan vəziyyətlər yaratmaqla şagirdləriniz stresli, onlara yad olan və ya mürəkkəb vəziyyətlərin öhdəsindən gələ bilər. Həmçinin tələbələrdə empatiyanı təşviq etmək üçün şagirdlərin digər şagirdlərin üzləşə biləcəyi vəziyyətlərdə rol almasını həvəsləndirən oyunlar keçirin. Məsələn, şagirdlərin gözlərini bağlayaraq dostlarını onların

34. Mənbə: Drummond, T. A Brief Summary of the Best Practices in College Teaching. North Seattle Community College, Washington. www.fctel.uncc.edu/ pedagogy/basicscoursedevelop/BestPractices.html [accessed online on 10/7/2005]

səsini dinləyərək və üzlərinə toxunaraq müəyyən etməsini xahiş edin.[35]

**Konsept modelləri.** Bu strategiya xüsusilə təbiət elmləri və riyaziyyat dərsləri üçün yaxşı işləyir. Şagirdlərə paylama materialları verin və ya lövhədə bir sıra yönləndirici suallar qeyd edin. İşləmə mexanizminin müəyyən edilməsi və ya konseptual modelin hazırlanması məqsədilə şagirdlər kiçik qruplarda işləyir yaxud hətta bütün sinifin iştirak etdiyi müzakirələri apara bilərsiniz. Onlar öz diaqramlarını qura və öz müşahidələrini qeyd edə bilər.

**Məsələnin həlli və nümayişlər.** Şagirdləri fərdi olaraq və ya qrup halında tapdıqları məsələnin həllini izah etməyə təşviq edin. Həmçinin onlardan nəyinsə necə işlədiyini nümayiş etdirməyi xahiş edə bilərsiniz; məsələn, termometr necə işləyir və ya velosipedin təkərləri niyə hərəkət edir.

**Şagirdlərin bir-birini öyrətməsi və ya öyrənmə hücrələri.** Müəyyən mövzu haqqında oxumaq üçün şagirdləri təsadüfi şəkildə seçin. Sonradan materialın mahiyyətini seçilmiş tərəfdaş, qrup və ya bütünlükdə sinfə öyrətməsini xahiş edin.

**Poster sessiyaları.** 3-5 şagirddən ibarət qruplar; (a) problemin və ya mübahisəli məsələnin müəyyənləşdirilməsi və aydınlaşdırılması; (b) məsələyə dair müvafiq məlumat və resursların yönləndirilməsi və (c) tapdıqları sübutlara dair hesabatların verilməsi funksiyasını daşıyan və qrup işlərini nümayiş etdirən plakatlar hazırlayırlar. Bu metod yuxarıda təsvir edildiyi kimi konsept modellərinin nümayiş etdirilməsində də istifadə edilə bilər. Azyaşlı şagirdlərdən "Arzularımın məktəbi" kimi vacib mövzuda plakat hazırlamağı və imkan daxilində onlardan plakatın bir küncündə bu barədə yazmağı xahiş edin. Bu onların artistik və yazı bacarıqlarının vəhdət təşkil etməsi və təkmilləşməsinə səbəb olacaq.

35. Digər oyunlar üçün Bax: Booklet 6: Creating a Healthy and Protective ILFE. Embracing Diversity: Toolkit for Creating Inclusive, Learning-Friendly Environments. UNESCO Bangkok, 2004.

# Çoxuşaqlı siniflərdə təlim-tədris prosesində qiymətləndirmə

## Rəy Bildirməyin Əhəmiyyəti

Çoxuşaqlı siniflərdə tədrisin ən böyük çətinliklərindən biri də şagirdlərə onlarla bağlı rəy bildirmək və onlardan dərs, o cümlədən öyrənmə prosesi haqqında rəy almaqdır. Bu rəylər şagirdlərə nə dərəcədə yaxşı olduqlarını və sizin öyrətdiyiniz materialı nə dərəcədə başa düşdüklərini görməyə kömək edir. Nəticə etibarilə onlara nə qədər çox rəy bildirsəniz, bir o qədər yaxşıdır, çünki bu, yalnız onlara deyil, sizə də kömək edəcəkdir. Məsələn, şagirdlərdən mühazirələriniz və fəaliyyətlərinizin tempi barədə nə düşündüklərini soruşun: Çox sürətlimi gedirsiniz? Mühazirələr və oxuma materialları mövzu ilə əlaqəlidirmi? Şagirdləriniz nümunələrinizi başa düşürlərmi və əsas məqamları göstərmək üçün bu nümunələr necə istifadə olunur? Şagirdlərinizlə danışmaqdan əlavə, əvvəlki bölmədə təsvir olunan sinifdə yazı tapşırıqları və qrup işləri də bu məlumatları verə bilər.

## Tapşırıqların verilməsi

Tapşırıqlar tələbələrə vacib anlayışları öyrənməyə kömək edən əsas vasitələrdən biridir. Onlar həm də şagirdlərimizin nailiyyətlərini qiymətləndirmək üçün ilkin vasitədir, çünki onlara bu tapşırıqlar əsasında konstruktiv rəy verə bilirik. Çoxuşaqlı siniflərdə şagirdlərin sayı bir çox fərdi işləri, layihələri və ya imtahanları nəzərdən keçirməyi çətinləşdirsə də, bu, onlara yazılı tapşırıqlar verməyə mane olmamalıdır. Aşağıdakı sadalanan bəzi təkliflər tapşırıqların sizin üçün və şagirdləriniz üçün faydalı olduğunu göstərir.

**Öyrənmə məqsədlərinizə və nəticələrinizə uyğun olan tapşırıqları seçin.** Tapşırıqlar xüsusilə bir çox şagirdin öyrənməsini izləməyə ehtiyac olan çoxuşaqlı siniflərdə planlaşdırma və tədris prosesinin vacib bir hissəsidir. Dərslərinizi tərtib edərkən, şagirdlərin təlim məqsədlərinə və arzu olunan nəticələrə nail olmaq üçün nə edəcəyinizi fikirləşərərək şagird mərkəzli bir yanaşma qəbul edin. Özünüzə verəcəyiniz vacib suallar: tapşırıqlarım şagirdlərim üçün istədiyim öyrənmə növünə uyğundurmu? Şagirdlərimin etibar edə biləcəyi fərqli öyrənmə üslublarına uyğundurmu? Onlara vacib anlayışları anlamağa və ya vacib məlumatları öyrənməyə kömək edirmi? Yaxşı nəticələrə

nail olmalarına kömək edirmi?

**Tapşırıqları elə tərtib edin ki, onlar sagirdlərinizin nəyi öyrənib, nəyi öyrənmədiyini üzə çıxarsın**. Çoxuşaqlı siniflərdə müəllimlər adətən "doğru, yalnış" ya da "variantlardan birini seçin" tipli cavabları olan tapşırıqlarla qiymətləndirməni həyata keçirirlər. Belə ki, bu tip qiymətləndirmə həm sürətli, həm də asandır.  Amma nəticələr yalnız cavab verməyi deyil, problemi həll etdikləri prosesi ("necə") izah etmək bacarıqlarının inkişaf etdirilməsini də əhatə etməlidir. Çoxuşaqlı siniflərdə bu, şagirdlərdən ev tapşırığında verilən məsələni necə həll etdiklərini göstərmək və sonra bütün sinfə göstərmək üçün yaxşı nümunələrin seçilməsi kimi bir çox yolla edilə bilər. Dərs zamanı könüllülərdən problemin həlli prosesini sinfə izah etmələrini xahiş edə bilərsiniz. Habelə şagirdlərinizə məsələ verə və məsələnin necə həll olunacağını izah etmək üçün qruplarda işləmələrini xahiş edə bilərsiniz.

**Sadəcə prosesi anladıqlarını yox, onu gündəlik həyatda da tətbiq edib-edə bilməyəcəklərini üzə çıxaran tapşırıqlar verin.** Bu qabiliyyəti inkişaf etdirib-etdirmədiklərini görmək üçün sinifdə və sinifdənkənar tapşırıqlar verin. Məsələn, ayrı-ayrılıqda və ya qrup halında bazarda və ya ev tikərkən riyazi anlayışların necə istifadə olunduğunu müşahidə etmək üçün tapşırıq verin. Bu strategiyalar şagirdlərinizin düşünmə proseslərinin və analitik bacarıqlarının düzgünlüyünü yoxlamağa kömək edəcəkdir. Qiymətləndirmənizə əsaslanaraq, bacarıqlarını artırmaq üçün onlara dərhal rəy bildirə bilərsiniz.

***Yadda Saxlayın: Şagirdlərin əksəriyyəti məsələni həll edə bilər, ancaq siz onlardan sadəcə bunu necə həll etdiklərini yox, niyə məhz bu cavabı aldıqlarını soruşmalısız. Bu istənilən fəndə həqiqi öyrənmənin sübutu ola bilər.***[36]

**Bütün tapşırıqlar üçün dəqiq təlimatlar verin.** Şagird olanda heç özünüzə: "bu tapşırıqda müəllimin nə istədiyini bilmirəm" dedinizmi? Düşünürəm ki, bu bir çoxumuzda olub. Yaxşı rəy bildirmək üçün verdiyimiz tapşırığı dəqiq izah etməliyik ki, şagirdlər onlardan nə gözlənildiyini bilsinlər. Bəzi müəllimlər dərsin sonunda şifahi tapşırıq verirlər. Təəssüf ki, çoxuşaqlı siniflərdə oxuyanların hamısı tapşırığı eşitməyə bilər, ya da bunu dəftərlərinə yazmağa vaxtları olmaya bilər. Sinif tapşırığı və ya ev tapşırığı üçün ən yaxşı strate-

36. Student Ratings of Teacher Effectiveness: Creating an Action Plan. Center for Support of Teaching and Learning, Syracuse University, New York. http://cstl. syr.edu/cstl2/Home/Teaching%20Support/Teaching%20at%20SU/Student%20 Ratings/12A500.htm [accessed online on 1/30/2006].

giya, lövhədə yazılmaqla deyil, paylama materialı şəklində tapşırıq vərəqini verməkdir (lövhədə yazılan tez bir zamanda silinə bildiyi üçün). Bir tərəfdən, bu vərəq evə qayıtdıqda və ya sinifdə işləyərkən dəqiq nə edəcəyini biləcəkləri üçün şagirdlərə kömək edəcək, Digər tərəfdən, sizə də kömək edə bilər. Bu sizi tapşırığı şagirdlərinizlə bölüşməzdən əvvəl hərtərəfli analiz etməyə məcbur edəcək.  Bundan əlavə, sizə yoxlamaq istədiyiniz bilik və bacarıqlara uyğun tapşırıq tərtib etmənizə imkan yaradacaq. Tapşırığı paylamazdan əvvəl onu şagirdlərinizlə müzakirə edin. Bu şagirdlərinizdə yarana biləcək stress və qarışıqlığın qarşısını alacaq. Tapşırığın müzakirəsi zamanı şagirdlərinizin verəcəyi suallar işin çərçivələrini dəqiq müəyyənləşdirməyə kömək edəcək. Problemləri və onların qarşısını almağın yollarını əvvəlcədən bilmək üçün də bu vaxtdan istifadə edə bilərsiniz.

**Şagirdlərə öyrəndiklərini göstərmək üçün müxtəlif fürsətlər** verin. Şagirdlərə öyrəndiklərini göstərmək üçün fürsət vermək, onların nailiyyətləri barədə daha dəqiq təsəvvür yaratmaq və rəy bildirmək üçün önəmlidir. Bununla birlikdə, təlim nəticələri ilə sıx bağlı olan müxtəlif metodlardan - layihələr, qrup təqdimatları, yazılar, imtahanlar və digər tapşırıq növlərindən istifadə etmək vacibdir. Əlavə olaraq, tədqiqat göstərir ki, konstruktiv rəyin bildirilməsi və irəliləyişlərini olmasına dair sübutlar şagirdləri öyrənməyə həvəsləndirir. Şagirdlər onların inkişafı üçün əlavə nəyə ehtiyacı olduqlarını bilməlidirlər. Güclü tərəflərini tərifləmək, zəif tərəflərini isə mümkün qədər uyğun formada göstərmək önəmlidir.[37]

**Çoxuşaqlı siniflərdə hər bir şagirdə fərdi rəy vermək çox çətindir.** Hansı şagirdlərin daha çox fərdi rəy tələb etdiyini müəyyənləşdirmək və bu tip siniflərdə sənədləşmə işlərini idarə etmək üçün bir çox müəllim "portfel" metodundan istifadə edir. Portfel, şagirdlərin tapşırıq nümunələri (məsələn, inşalar, hekayələr və hesabatlar, illüstrasiyalar, şəkillər, xəritələr və diaqramlar; habelə riyaziyyat iş vərəqləri, digər tapşırıqlar və qrafiklər kimi) olan qovluq şəklində sənəddir. Sinif fəaliyyətində öhdəlik götürmək kimi şagirdlərin dərsdənkənar fəaliyyətləri də burada qeyd edilə bilər. Portfeldəki material xronoloji ardıcıllıqla hazırlandığı tarix və kontekstə uyğun yığılır. Məsələn, kontekst belə ola bilər: **"Bu müstəqil yazı işidir. Yalnız mövzu və bəzi əsas lüğətlər təqdim olundu. Bu tapşırıq üçün otuz dəqiqə verildi."** Beləliklə, portfel hər bir şagirdin öyrənmə prosesini, yəni hər bir tələbənin nəyi öyrəndiyini və necə öyrəndiyinin qeydiyyatını aparır. Bu üsul uğursuzluqlarından çox, şagirdin uğurlarını izləyir. Portfel təşkil edildikdən sonra

37. Ibid.

siz özünüzün və şagirdlərinizin uğurlarını qiymətləndirə bilərsiniz. Hər semestrdə və ya yarımildə ən azı iki dəfə, daha çox fərdi diqqətə ehtiyacı olan şagirdləri müəyyənləşdirmək üçün bütün işləri nəzərdən keçirin. Onlardan hansı yollarla daha yaxşı öyrəndiklərini soruşun və şagirdin öyrənməsini inkişaf etdirmək üçün hansı əlavə işləri edə biləcəyinizə qərar verin. [38]

## İmtahanların verilməsi

Bəlkə də öyrənmə nailiyyətlərini ölçməyin ən populyar yolu imtahandır. Böyük siniflərdə həm müəllimlər, həm də şagirdlər imtahanlardan qorxurlar. Şagirdlər imtahana girməkdən və uğursuz olmaqdan, müəllimlər isə nəticələri qiymətləndirməkdən qorxurlar.

İmtahanlar ya obyektiv (məsələn, çoxseçimli cavabları olan suallar), subyektiv (məsələn, inşa şəklində yazılı imtahan) və ya hər ikisinin birləşməsi ola bilər. Ancaq bəzi hallarda, imtahanlar şagirdlərin həqiqətdə öyrədilənləri nə qədər qavradıqlarını və həyatda tətbiq edə bilib-bilmədiklərini göstərə bilmir. Bu hal xüsusilə tətbiqdən daha çox əzbərləməyə əsaslanan çoxsaylı seçim və doğru yalnış tipli suallar olan imtahanlarda özünü büruzə verir. İmtahan prosesini necə inkişaf etdirmək olar? Burada bir neçə variant ola bilər. Daha yaxşısını düşünə bilərikmi?

**Şagirdlərə "tanış olan" imtahanlar hazırlayın.** Bu, bir çox şagirdə imtahan narahatlığından xilas olmağa kömək edir. İmtahan sualları sorğularda, ev tapşırıqlarında, mühazirələr və ya müzakirələrdə istifadə etdiyiniz suallarla eyni formada olmalıdır. Şagirdlər dərs zamanı tələb olunan və imtahanda soruşulan şeylər arasında əlaqə yarada bildikdə səy göstərməyə daha çox həvəslənəcəklər.

**İclaslar keçirin.** İmtahan vaxtı yaxınlaşdıqca, bütün siniflə və ya qruplar şəklində iclas sessiyaları keçirmək üçün bir dərs ayırın. Sessiya vaxtının üçdə bir hissəsi mövzunun əsas məqamlarını vurğulayan qısa bir mühazirəyə, digər hissələr şagirdlərin sualları və ya qısa məşğələ keçirilməsinə sərf edilə bilər. Bu seanslar şagirdlərinizin realda nə öyrəndikləri barədə fikir formalaşdıracaq və bu öyrənməni nümayiş etdirən daha təsirli imtahanların hazırlanmasına kömək edəcəkdir.

**Nailiyyətləri nümayiş etdirən imtahanları inkişaf etdirin.** Standart imtahanların əvəzinə və ya onlarla birlikdə, şagirdlərinizin öyrəndiklərini tətbiq

38. Booklet 5: Managing Inclusive, Learning-Friendly Classrooms. Embracing Diversity: Toolkit for Creating Inclusive, Learning-Friendly Environments. Bangkok: UNESCO, 2004.

edə biləcəklərini görmək üçün aşağıdakılardan birini və ya bir neçəsini sınayın.[39]

- Qısa inşa sualları əlavə edin; şagirdlərə cavab üçün məhdud yer ("cavab" qutusu) verməklə cavabların uzunluğuna nəzarət edin. Belə kiçik hissədə şagirdləriniz əsas mövzunu çatdırmağı bacarmalıdırlar. 60 ədəd dörd sətirli cavabları qiymətləndirmək, 60 ədəd tam səhifə və ya hətta yarı səhifəlik cavabları qiymətləndirməkdən daha asandır.

- Şagirdlərdən diaqramlardan, qrafiklərdən və ya şəkillərdən istifadə edərək suallara cavab vermələrini xahiş edin. Bu şagirdlərin analitik bacarıqları haqqında daha çox məlumat verir. Həm qısadır və həm də daha asan qiymətləndirilir.

- Bəzi çoxseçimli suallar üçün şagirdlərdən düzgün cavabı seçmələrini və bu cavabı necə aldıqları barədə bir və ya iki sətir izahat vermələri istəyin.

- Qrup imtahanları təyin edin. Qrupun hazırladığı "məhsula" uyğun verdiyiniz qiyməti bütün qrup üzvlərinə aid edin. Qrup üzvlərindən bir-birlərini anonim olaraq qiymətləndirmələrini xahiş edin və sonra hər bir şagirdə qrupun orta qiymətini verin.

- Yazılı tapşırıq kimi şagirdlərdən sinif mühazirələrinizə, fəaliyyətlərinizə əsasən öz imtahan suallarını və cavabları hazırlamalarını istəyin. Bu bəndlər faktiki testlərdə istifadə edilə bilər və tələbələr onları sizin hazırladığınız suallardan daha yaxşı başa düşə bilər.

**Bütün imtahanların mükəmməl olmadığını etiraf edin.** Şagirdlərin sayı və öyrənmə tərzlərinin müxtəlifliyinin böyük olduğu siniflərdə "bir imtahan hamısına uyğundur" strategiyası yaxşı işləməyə bilər. İmtahanda ayrı-ayrı şagirdlər və ya bütün sinif üçün problemli bəzi maddələr ola bilər. Tədqiqatlar göstərir ki, şagirdlərə sualların nə dərəcədə ədalətli olması barədə şərh verməyə icazə verildikdə onlar imtahandan daha çox razı qalırlar.[40] İmtahanda daha yetkin şagirdləri müəyyən bəndlərə şərh verməsi üçün yer buraxmağı nəzərə alın. Şərh şagirdin sualı deyil, materialı başa düşdüyünü

39. Student Ratings of Teacher Effectiveness: Creating an Action Plan. Center for Support of Teaching and Learning, Syracuse University, New York. http://cstl. syr.edu/cstl2/Home/Teaching%20Support/Teaching%20at%20SU/Student%20 Ratings/12A500.htm [accessed online on 1/30/2006].
40. Large Classes: A Teaching Guide – Giving Students Feedback. Center for Teaching Excellence, University of Maryland, 2005. www.cte.umd.edu/library/large/feeds. html [accessed online on 10/7/2005]

göstərirsə (bu suala zəif cavab verilə bilər), o zaman həmin suala görə şagirdə kredit verilə bilər. Bir çox şagird və ya hətta bütün sinif üçün problemli olan imtahan bəndlərini/suallarını müəyyən etmək üçün bu metoddan istifadə edə bilərsiniz. Azyaşlı şagirdlər üçün, ən çox yanlış cavab verilən bəndlər toplusunu saxlayın. Bu bəndlər üçün problem keyfiyyətsiz sual tipi olduqda həmin hissə silinməlidir. Lakin səbəb zəif başa düşməkdirsə, imtahan etdiyiniz hissəni yenidən öyrətməli olacaqsınız.

## Tapşırıqların və imtahanların qiymətləndirilməsi

**Tapşırıqlar barədə dərhal rəy verin.** Çoxuşaqlı siniflərdə müəllimlər 60-dan çox şagird olduğu üçün bir çox hallarda ev tapşırıqlarını qiymətləndirməyə vaxt tapmırlar. Əvvəldə qeyd edildiyi kimi, siniflərə verilən tapşırıqların həcmini minimuma endirməyin bir yolu şagirdlərin qrup halında tapşırıqlar etməsidir. 10 tapşırığı qiymətləndirmək 60-dan daha asandır! Başqa bir üsul, ayrı-ayrı şagirdlər üçün qısa bir sinif tapşırığı təyin etmək və başa çatdıqda sizə tapşırığı gətirmələrini xahiş etməkdir. Bunu yerində qiymətləndirə və onlara dərhal rəy verə bilərsiniz. Bu sürətli cavab şagirdlərin tapşırıq barədə düşünmələrini təmin edir və beləliklə rəyləriniz daha mənalı təsir göstərir. Üstəlik, sürətli rəyiniz şagirdlərinizə öyrəndiklərinin vacibliyini və dərsi nə qədər yaxşı qavramaları ilə bağlı narahat olduğunuzu göstərir. Masanızın qarşısında növbə yaratmamaq üçün öncədən nömrələnmiş kağızlar paylaya və hər kəsi öz nömrəsinə uyğun sıra ilə çağıra bilərsiz. Bu gözləmə müddəti ərzində onlara əlavə kredit üçün qısa tapşırıqlar verə bilərsiz.

Hətta yuxarı siniflərdə oxuyan şagirdlərdən tapşırıqları qiymətləndirməyi xahiş edə bilərsiniz; ya da şagirdləriniz tapşırıqlarını dəyişə və bir-birlərinin işlərini qiymətləndirə bilərlər. Bununla yanaşı, onların qiymətləndirmə prosesinə nəzarət etməlisiniz. Şagirdlərin bir-birlərini necə qiymətləndirdiklərini görmək daha əyləncəli ola bilər və onların nəyi bilib -bilmədikləri barədə daha dolğun fikir sahibi ola bilərsiz.

Ev tapşırığı dərsin vacib bir hissəsidirsə və şagirdlərinizin işini qiymətləndirməyə kömək edəcək biri yoxdursa, vaxtınıza qənaət etmək üçün ev tapşırıqlarından bir neçə nümunə qiymətləndirin. Qiymətləndirmədiyiniz tapşırıqlar üçün şagirdlərə doğru cavablar olan vərəq paylayın ya da sualların üzərindən bir-bir keçmək üçün dərsin bir hissəsini ayırın.

**Çoxsaylı imtahan vərəqələrini qiymətləndirmək yükünə qarşı mübarizə**

**aparmaq üçün şagirdlərinizi cəlb edin.** Mümkün olduqda, bütün dərs vaxtını almayan qısa imtahanlar edin. Şagirdləriniz sonrakı qiymətləndirmə prosesində sizə kömək edə bilərlər. İmtahanda verilmiş obyektiv suallar üçün bəzi müəllimlər əvvəlcədən cavab vərəqləri hazırlayırlar. Şagirdlərin hamısı bitirdikdən sonra vərəqlərini dəyişir və cavab vərəqlərindən istifadə edərək sinif yoldaşlarının imtahanını qiymətləndirirlər. Sonra müəllim vərəqləri toplayır, qiymətləri yoxlayır və imtahanda hansı subyektiv (esse) sualların verildiyini yoxlayır.

Cavab vərəqlərindən istifadədən başqa digər bir yol müəllimin hər bir sualın düzgün cavabını ucadan oxuması və eyni qaydada şagirdlərin bir-birinin vərəqini yoxlamasıdır. Bunu və ya oxşar strategiyanı istifadə etsək, şagirdlərin çatışmazlıqlarını öyrənmək və nəyi yaxşılaşdırmaq lazım olduğunu tapmaq üçün bir neçə gün və ya həftə gözləmək lazım deyil.

## Tədris üzərində refleksiya

Çoxuşaqlı siniflərdə şagirdlərin öyrənməsinin yaxşılaşdırılması bizi peşəkar şəkildə böyüməyə, öyrətdiklərimizi və öyrətmə metodumuzu inkişaf etdirməyə məcbur edir. Əks təqdirdə, həm cansıxıcı olmaq, həm də şagirdlərimizi tam öyrədə bilməmək riskini daşıyırıq.

**Çoxuşaqlı siniflərin yaxşı müəllimləri şagirdləri ilə tədris haqqında danışırlar.** Şagirdlərini onların öyrətmə metodları haqqında nəyin yaxşı və nəyin pis olmasını izah etməyə təşviq edirlər. Diqqəti cəlb edən əsas mövzular "sinif mühitinin nə dərəcədə rahat olması, dərslərin və fəaliyyətlərin planlı şəkildə qurulması, mühazirələrin şagirdlər üçün anlaşıqlı olması, şagirdlərin müəllim ilə danışmaqda özlərini rahat hiss etmələri, uyğun tapşırıqların olması, ədalətli qiymətləndirmə, dərhal rəy verilməsi" və s. olur.

Şagirdlərin tədrislə bağlı rəyini bilmək üçün bəzi müəllimlər, narahatlıq doğuran bütün bu mövzulara dair suallardan ibarət dərs ilinin ortasında "tədris imtahanı" hazırlayır. Müəllimlərin tədris ilinin ortalarında aldıqları təkliflər, tədris ilinin qalan hissəsində onların fəaliyyətinin yaxşılaşdırılmasına kömək edir. Eyni zamanda şagirdlərdə tədris prosesində faydalı rolları olduğuna dair bir hiss inkişaf etdirilir.[41]

Başqa bir vasitə isə anonim sorğuların keçirilməsidir. Bu anketlər bizə

41. Hipple, T. and McClam T. Tips for Better Teaching. Chronicle of Higher Education Career Network Pages, 11 March 2002. http://chronicle.com/ jobs/2002/03/2002031102c.htm

kiçik siniflərdə üstünlük təşkil edən, lakin çoxuşaqlı siniflərdə gözdən itən şagirdlərdən məlumat toplamağa imkan verir. Anonim sorğular şagirdlərə duyğularını və sinifdəki problemlər barədə həqiqəti söyləmək üçün etibarlı bir mühit yaradır. Bu sorğulardan şagirdlərimizin sinif haqqında təsəvvürləri, tapşırıqların və qiymətlərin ədalətli olması, şagirdlərin tapşırıq üzərində nə qədər işlədikləri, yaxud bir test üçün oxuduqları və ya bu kimi məsələlər haqqında faydalı məlumatlar əldə edə bilərik.[42]

Bəzi müəllimlər hətta şagirdlərdən fərdi tapşırıqları qiymətləndirmələrini xahiş edirlər. Şagirdlər tapşırıqla bağlı çətinliklərini, onu inkişaf etdirməyin yollarını və tapşırığı yerinə yetirmək nəticəsində öyrəndiklərini (və ya öyrənmədiklərini) müəyyənləşdirən qısa bir qiymətləndirmə formasını doldururlar. Bu, müəllimin tapşırığın arzu olunan öyrənmə növünə uyğun olub olmadığını qiymətləndirməsinə kömək edir. Habelə gələcək şagirdlər üçün tapşırığı dəyişdirməyə də imkan yaradır.[43]

**Çoxuşaqlı siniflərin yaxşı müəllimləri həmkarları ilə tədris haqqında danışırlar.** Neçə dəfə həmkarlarınızla maraqları, ailələri, həyatlarında baş verənlər və s. barədə danışmısınız? Hətta bir məktəb komitəsi və ya icma xidmət təşkilatında işləmək barədə onlarla danışa bilərdiniz. Bunlar müəllimlər arasında ümumi maraq doğuran mövzulardır.

Bəs siz və həmkarlarınız müəllimliyiniz, çoxuşaqlı sinifdə yaşadığınız problemlər və ya uğurlarınız (sadəcə "çətin şagirdlər" haqqında yox) haqqında tez-tez danışırsınız? Bu (və digər) məsələlər haqqında danışmasanız, bu cür müzakirələr tədrisin keyfiyyətində dəyişiklik edə bilərmi? Sizin üçün? Həmkarlarınız üçün? Şagirdləriniz üçün? Bəlkə də edə bilər. Həmkarınızdan, sinfinizə baş çəkməyi xahiş etməyiniz necə, təsir edə bilərmi? Çoxuşaqlı sinif müəllimləri üçün belə bir təcrübə və daha sonra nəyin işlədiyi və işləməməsi barədə fikir mübadiləsi olduqca dəyərli ola bilər. Həmkarlarınız sizə bildirdiyi yaxşı yaxud pis rəy, eləcə də sizin onlara verdiyiniz rəy, sizin yaxşı müəllim olmağınıza kömək edəcəkdir.[44]

42. Preston, J. A. and Shackelford, R. A System for Improving Distance and Large-Scale Classes. Georgia Institute of Technology. http://cims.clayton.edu/jpreston/Pubs/ iticse98.htm [accessed online on 10/6/2005]
43. Student Ratings of Teacher Effectiveness: Creating an Action Plan. Center for Support of Teaching and Learning, Syracuse University, New York. http://cstl. syr.edu/cstl2/Home/Teaching%20Support/Teaching%20at%20SU/Student%20 Ratings/12A500.htm [accessed online on 1/30/2006].
44. Hipple, T. and McClam T. "Tips for Better Teaching" in Chronicle of Higher Education Career Network Pages, 11 March 2002. http://chronicle.com/ jobs/2002/03/2002031102c.htm

Bu rəyi əldə etməyin başqa bir yolu şəbəkə qurmaqdır. Hökumət təhsil agentlikləri, təhsil problemləri ilə məşğul olan yerli qeyri-hökumət təşkilatları, habelə ölkənizdə və bölgənizdəki müəllim hazırlığı müəssisələri ilə əlaqə saxlayın. Onlardan çoxuşaqlı siniflərdə tədrisin yaxşılaşdırılması üzərində çalışan müəllim haqqında soraqlaşın və məlumat toplayın. Bu müəllimlərlə əlaqə saxlayın və mümkündürsə onların metodlarnı öyrənmək üçün dərs dedikləri məktəblərə baş çəkin. Əgər çox bahalı olduğuna görə bu məktəblərə baş çəkə bilmirsinizsə, nümunə dərs planları, tədris metodlarının təsviri və ya təlimat materialları və qrup fəaliyyətlərinin nümunələri kimi siniflərinizdə istifadə edə biləcəyiniz, asanlıqla çoxalda biləcəyiniz hər hansı bir mənbəyi sizə göndərmələrini xahiş edin. Maliyyə dəstəyi olduqda, onlardan da məsləhət almaq üçün məktəbinizə baş çəkmələrini xahiş edin, habelə məktəb rəhbərləri və xüsusən də sadəcə mühazirə deməyin əvəzinə aktiv öyrənməni tətbiq edən digər müəllimlərlə çoxuşaqlı siniflərə öyrətməyin təsirli yolları haqqında danışın. Hər şeydən əvvəl: ruhdan düşməyin. Şəbəkələr qurun və çoxuşaqlı siniflərdə tədris etməyi bilənlər ilə yaxşı münasibət yaradaraq daim əlaqə saxlayın.

***Yadda saxlayın: Çoxuşaqlı siniflərin yaxşı müəllimləri öz tədris üsulları üzərində refleksiya edir. Refleksiya sinifdə çox şagirdin olması üzərində qurulmur. Bu bir həqiqətdir və bu barədə heç bir şey edilə bilməz. Bunun əvəzinə, yaxşı müəllimlər tədris haqqında düşünürlər – sinfinin davranışı, planları, istifadə etdikləri fəaliyyətlər, şagirdlər haqqında ümumi məlumatlar və onların təcrübələri, şagirdlərinin nəyi, eləcə də niyə öyrəndikləri və niyə öyrənmədikləri haqqında düşünürlər. Yaxşı müəllimlər tədris haqqında düşünməkdən daha çoxunu edirlər; onu düzəltmək üçün mümkün olan bütün vasitələrdən istifadə edirlər. Ümid edirik ki, bu sənəddə siz çoxuşaqlı sinifdə tədris və tədrisinizi necə inkişaf etdirmək barədə bəzi dəyərli məsləhətlər, tövsiyələr öyrəndiniz. İlk olaraq hansı fikirləri sınamaq istərdiniz?***

# Çoxuşaqlı siniflərin tədrisi üçün 20 məsləhət

1. Əvvəlcədən planlayın və hərtərəfli hazırlaşın; çoxuşaqlı siniflərdə problemlər böyüyə bilər, lakin eyni zamanda effektiv şəkildə də həll oluna bilər.

2. Lazımsız mebelləri kənarlaşdıraraq sinfin sahəsindən maksimum istifadə etməklə sinfin xaricindəki sahəni öyrənmə və fəaliyyət sahələri kimi istifadə edin. Sinfin rahat şəkildə qurulması üçün şagirdlərinizin təkliflərini bildirməsini xahiş edin.

3. Şagirdlərinizi tanımaq üçün əlinizdən gələn hər şeyi edin. Şagirdlərlə yaxşı münasibətin qurulması onlarda dərsdə fəal iştirak etmək istəyi yaradır.

4. Şagirdlərinizi hər kəsə interaktiv şəkildə təqdim edin. Özünüzü də təqdim etməyi unutmayın.

5. Danışdığınız zaman sinifdə hərəkət edin – bu şagirdləri dərsə daha fəal şəkildə cəlb edir, o cümlədən şagirdləriniz və sizin aranızda olan fiziki, sosial məsafəni azalda bilər.

6. Sinifdə, sinfin xaricində təbii və səmimi olun – özünüz olun.

7. Şagirdlərinizə onların suallarına cavab vermək üçün dərsdən əvvəl və sonra əlçatan olacağınızı söyləyin.

8. Tez-tez verilən sualları və ya ümumi səhvləri izləyin. Dərslərin hazırlanması zamanı onlardan istifadə edərək şagirdlərə səhvlərdən yayınmağa kömək olun.

9. Sinfi nəzarətdə saxlayın. Sinifdə nəsə baş verdiyini hiss etdikdə şagirddən nə baş verdiyini soruşun. Kiçik şagird qrupunu vacib sinif məsələlərini müzakirə etmək üçün sizi ziyarət etməyə dəvət edin. Lazım olduqda şagirdləri cəlb edin və pis davranışla mübarizə aparmaq üçün müsbət intizamdan istifadə edin.

10. Dərslərinizin məzmununu, şagirdlərinizin bilik və bacarıqlarını

yoxlamaq, xüsusi diqqətə ehtiyacı olan şagirdlərin müəyyən edilməsi, eləcə də şagirdlərin həyat təcrübələri ilə əlaqə yaratmaq üçün şagirdlərinizə anket və ya diaqnostik test verin.

11. Şagirdlərinizin diqqət dairsəinin 15 dəqiqə olmasını unutmayın: mühazirənin 15 dəqiqəsindən sonra fəaliyyət və sonra ehtiyac olduqda əlavə mühazirə ideal qrafikdir. Mühazirədən başqa formada hansı informasiyanın verilə biləcəyini müəyyən edin və onun üçün metodlar hazırlayın.

    Məsələn, qrup işi, rollu oyun şagirdlərin təqdimatları, sinifdənxaric oxu, sinifdə yazı işi və sinifdə müəyyənləşdirilmiş rejimi rəngarəng etmək və öyrənmənin təşviqi üçün əla üsullar ola bilər.

12. Çoxuşaqlı siniflərdə tədrisinizi planlamaq üçün formal dərs planı hazırlayın; bu şagirdlərinizin dediyiniz dərsi anlayıb-anlamamasını nəzarət etməyin bir üsuludur və sizə tədris üsulunuzu təkmilləşdirmək üçün növbəti hansı addımları atacağınızı müəyyən etməyə imkan yaradır. Planlarınızda öyrədiləcək mövzu, öyrənmə məqsədləri, tədris üsulları, sinfin təşkili, əsas fəaliyyətlər, resurslar və qiymətləndirmə metodlarını müəyyən edin.

13. Şagirdlərə dərsi yaxud konkret mövzunu niyə və nə üçün bu tərzdə keçdiyinizi izah edin. Məsələn, "Məhz bu səbəbdən sizə dərsin sonunda test verirəm."

14. Günün mövzusu və öyrənmə məqsədlərinə dair planı vizual nümayiş etdirin (məsələn, lövhədə sadalayın). Bu sizə və şagirdlərinizə sinifdəki axını daha rahat izləməyə kömək edəcək. Dərsin əvvəli, ortası və sonunu aydın şəkildə planlayın.

15. Şagirdlərin sual vermə və cavablandırma bacarıqlarını inkişaf etdirmək üçün gözlənilmədən suallar verin və sualı verdikdən sonra cavablandırılması üçün 10-a qədər sayın.

16. Şagirdlərinizin tədris etdiyiniz mövzunu öyrənib-öyrənməməsini müəyyən etmək üçün bunu həqiqətən qiymətləndirəcək tapşırıqlar verin. Məsələni necə həll etdiklərini izah və öyrəndiklərini gündəlik həyat tərzinə tətbiq edə bilirlərmi? Bütün tapşırıqlar üçün aydın və ətraflı təlimatlar verin.

17. Şagirdlərin performansını - həm uğurları, həm də inkişaf etdirilməsinə ehtiyac duyulan sahələri izləmək, eləcə də əlavə diqqət tələb edən uşaqların müəyyən edilməsi üçün portfel sistemi və ya digər üsulları hazırlayın.

18. Şagirdlərinizin yadda saxladıqları deyil həqiqi öyrəndiklərini, o cümlədən öyrəndiklərini tətbiq edə bildiklərini qiymətləndirmək üçün imtahanlar hazırlayın.

19. Tapşırıq və imtahanlara dərhal rəy bildirməyə çalışın. Rəyin daha tez bildirilməsi üçün şagirdlərinizi qiymətləndirmə prosesinə cəlb edin.

20. Tədris prosesi üzərində refleksiya edin. Həmkarlarınız və şagirdlərinizlə dərsinizi necə inkişaf etdirməyinizə dair müzakirələr aparın. Çoxuşaqlı sinifdə dərs deyən həmkarlarızın dərslərində oturun, çoxuşaqlı siniflərdə tədrisə dair fikir və material mübadiləsi edin. Yuxarıda sadalananlara əlavə olaraq çoxuşaqlı sinifdə dərs deməyə çətinlik kimi deyil, məhz fürsət kimi yanaşın.

# Əlavə məlumat əldə etmək üçün mənbələr

Çoxuşaqlı siniflərdə tədris və əlaqəli mövzularda əlavə məlumat əldə etmək üçün sizə aşağıda göstərilən mənbələri araşdırmağı tövsiyə edirik.

## Nəşrlər

Aronson, R. "Six Keys to Effective Instruction in Large Classes: Advice from a Practitioner," in Weimer, MG. (Ed.), ***Teaching Large Classes Well. New Directions for Teaching and Learning,*** No. 32, San Francisco: Jossey- Bass, 1987.

Bligh, D.A. *What's the Use of Lecturing?* Devon, England: Teaching Services Centre, University of Exeter, 1971.

Bonwell, C. C. ***Active Learning: Creating Excitement in the Classroom.*** Center for Teaching and Learning, St. Louis College of Pharmacy, 1995.

Bonwell, C. C. and Eison, J. A. ***Active Learning: Creating Excitement in the Classroom.*** ASHE-ERIC Higher Education Report No.1. Washington, D.C.: The George Washington University, School of Education and Human Development, 1991.

Brookfield, S. D. ***Becoming a Critically Reflective Teacher.*** San Francisco: Jossey-Bass, 1995.

Brown, G. ***Lecturing and Explaining.*** New York: Methuen, 1978.

Carbone, E. and Greenberg, J. "Teaching Large Classes: Unpacking the Problem and Responding Creatively" in Kaplan, Matthew (ed.), ***To Improve the Academy 1998, Resources for Faculty, Instructional and Organizational Development.*** A publication of the Professional & Organizational Development Network in Higher Education, Volume 17, 1998.

Chism, N. ***Large-Enrollment Classes: Necessary Evil or Not Necessary Evil.*** Notes on teaching. Columbus: Center for Teaching Excellence, Ohio State University, June 1989, pp. 1–7.

Cross, K. P. and Angelo, T. A. ***Classroom Assessment Techniques: A Handbook for Faculty,*** Second Edition. San Francisco: Jossey–Bass, 1993.

Davis, B.G. ***Tool For Teaching.*** San Francisco: Jossey–Bass. 1993.

Teaching Technologies, Center for University Teaching. ***Developing Thinking in Large Classes***. Ottawa: University of Ottawa, July 1997.

Donal, J. G. ***Learning to Think: Disciplinary Perspectives.*** San Francisco: Jossey–Bass, 2002.

Dubrow, H., and Wilkinson, J. "The Theory and Practice of Lectures," in Gullette, M. M. (Ed.), ***The Art and Craft of Teaching.*** Cambridge, Mass.: Harvard University Press, 1984.

Eble, K. E. ***The Craft of Teaching.*** (2nd ed.) San Francisco: Jossey–Bass, 1988.

Ericksen, S. C. ***The Lecture***. Ann Arbor: Center for Research on Teaching and Learning, University of Michigan, 1978.

Feichtner, S.B. and Davis E.A. "Why Some Groups Fail: A Survey of Students' Experiences with Learning Groups," ***Organizational Behavioral Teaching Review,*** Vol. 9, pp. 58–73, 1985.

Fink, D. ***Creating Significant Learning Experiences.*** San Francisco: Jossey–Bass, 2003.

Finkel, D. ***Teaching with Your Mouth Shut.*** Portsmouth, NH: Boynton/Cook Publishers, 2000.

Frederick, P. J. "Student Involvement: Active Learning in Large Classes," in Weimer, M.G. (Ed.), ***Teaching Large Classes Well. New Directions for Teaching and Learning*** No. 32. Francisco: Jossey–Bass, 1987.

Frederick, P.J. "The Lively Lecture – 8 Variations," ***College Teaching,*** Vol. 34, No. 2, pp. 43–50, 1986.

Gleason, M. "Better Communication in Large Courses," ***College Teaching,*** 34 (1): 20–24, 1986.

Jensen, V. and Attig, G. "The Arts and Quality Education in Asia," in: ***Educating for Creativity: Bringing the Arts and Culture into Asian Education.*** Bangkok: Office for the Regional Advisor for Culture in Asia and the Pacific, UNESCO, 2005.

Johnson, C. R. ***Taking Teaching Seriously.*** College Station: Center for Teaching Excellence, Texas A&M University 1988.

Lowman, J. "Giving Students Feedback," in Weimer, MG. (Ed.), ***Teaching Large Classes Well. New Directions for Teaching and Learning,*** No. 32. San Francisco: Jossey–Bass, 1987.

Lowman, J. L. ***Mastering the Techniques of Teaching*** (2nd ed.). San Francisco: Jossey–Bass, 2000.

Malone, K. and Tranter, P. "Children's Environmental Learning and the Use, Design and Management of Schoolgrounds," ***Children, Youth and Environments,*** Vol. 13, No. 2, 2003.

Moore, K. D. ***Classroom Teaching Skills: A Primer.*** New York: Random House, 1989.

Palmer, P.J. ***The Courage to Teach.*** San Francisco: Jossey–Bass, 1997.

Paulson, M. B., and Felman, K. A. ***Taking Teaching Seriously: Meeting the Challenge of Instructional Improvement.*** San Francisco: Jossey–Bass, 1999.

Shea, M. A. ***Compendium of Good Ideas on Teaching and Learning.*** Boulder: Faculty Teaching Excellence Program, University of Colorado, 1990.

Silberman, ML. ***Active Learning: 101 strategies to Teach Any Subject.*** Boston: Allyn & Bacon, 1996.

Slavin, R. E. ***Cooperative Learning: Theory, Research, and Practice,*** Second Edition. Needham Heights, MA: Allyn & Bacon, 1995.

UNESCO. ***Embracing Diversity: A Toolkit for Creating Inclusive, Learning-Friendly Classrooms.*** Bangkok, 2004. Also available online at: www2.unescobkk.org/ips/ebooks/documents/Embracing_Diversity/index. Htm

UNESCO. ***ILFE Specialized Booklet 1 – Embracing Diversity: Tools for Positive Discipline in the Inclusive, Learning-Friendly Classroom – A Guide for Teachers and Teacher Educators.*** Bangkok, 2006.

Weimer, M. ***Learner-centered Teaching: Five Key Changes to Practice.*** San Francisco: Jossey–Bass, 2002.

## İnternet resurslar

Brenner, J. Making Large Classes More Interactive. Inquiry, Vol. 5, No. 1, Spring 2000. www.vccaedu.org/inquiry/inquiry–spring2000/I–51–brenner.html

Developing Thinking in Large Classes. Teaching Technologies, Center for University Teaching, University of Ottawa, July 1997. www.uottawa.ca/academic/cut/options/July_97/Opt_thinking.htm

Dion, L. But I Teach a Large Class. In: A Newsletter of the Center for Teaching Effectiveness, Spring 1996, University of Delaware. www.udel. edu/pbl/cte/spr96–bisc2.html

Drummond, T. A Brief Summary of the Best Practices in College Teaching. North Seattle Community College, Washington. www.fctel.uncc.edu/ pedagogy/basicscoursedevelop/BestPractices.html

Felder, R. Beating the Numbers Game: Effective Teaching in Large Classes. North Carolina State University, 1997. www.ncsu.edu/felder–public/Papers/ Largeclasses.htm

Helpful Hints for Teaching Large Classes. Center for Teaching, Learning

& Faculty Development. Ferris State University. www.ferris.edu/HTM-LS/ academics/center/Teaching_and_Learning_Tips.html

Hipple, T. and McClam T. Tips for Better Teaching. Chronicle of Higher Education Career Network Pages, 11 March 2002. http://chronicle.com/ jobs/2002/03/2002031102c.htm

Illinois State University's List of URLs for strategies with large classes, including the use of writing in large classes http://wolf.its.ilstu.edu/CAT/ online/tips/largec.html

Implementing Active Learning. Houghton Mifflin College Division. Online Teaching Center http://college.hmco.com/psychology/brehm/social_ psychology/6e/instructors/active_learning.html

Intentional Learning: A Process for Learning to Learn. American Accounting Association. http://aaahq.org/AECC/intent/4_4.htm

Ives, S. A Survival Handbook for Teaching Large Classes. University of North Carolina Charlotte Faculty Center for Teaching, 2000. www.fctel.uncc.edu/pedagogy/focuslargeclasses/ASurvivalHandbook.htm

Large Classes: A Teaching Guide – Large Class Introduction. Center for Teaching Excellence, University of Maryland, 2005. www.cte.umd.edu/ library/large/intro.html

Modes of Teaching. http://ftad.osu.edu/Publications/TeachingHandbook/ chap-5.pdf#search='5%3A%20%20Modes%20of%20Teaching'

Preparing to Teach the Large Lecture Course. Tools for Teaching. University of California, Berkeley. www.teaching.berkeley.edu/bgd/largelecture.html

Preston, J. A. and Shackelford, R. A System for Improving Distance and Large-Scale Classes. Georgia Institute of Technology. http://cims.clayton.edu/jpreston/Pubs/iticse98.htm

Problem-Based Learning, especially in the Context of Large Classes http://chemeng.mcmaster.ca/pbl/pbl.htm

Student Ratings of Teacher Effectiveness: Action Plan Teaching Strategies. Center for Support of Teaching and Learning, Syracuse University, New York. http://cstl.syr.edu/cstl2/Home/Teaching%20Support/Teaching%20 at%20SU/ Student%20Ratings/12A510.htm

Suggestions for Establishing Rapport With the Students When Teaching Large Classes. Teaching OPTIONS Pédagpgique. www.uottawa.ca/academic/ cut/options/July_97/Opt_RapportCl.htm

Teaching Large Classes: A Brief Cost–effectiveness Analysis with Some Concrete Suggestions to Offset Losses. University of North Carolina at Wilmington Center for Teaching Excellence. www.uncw.edu/cte/workshop_ materials/teaching_large_classes.htm

Teaching Large Classes. Teachers in Action, BBC World Service / OLSET. http://www.teachingenglish.org.uk/think/methodology/large_classes. shtml#discipline

The University of Maryland's special programme and forum on teaching large classes.

www.inform.umd.edu/CTE/Icn/index.html

# QEYDLƏR

Kitab **"İdeal Print"** mətbəəsində
çap olunub.
Telefonlar: 012 341 94 74
051 250 86 50

Çapa imzalanıb: 07.02.2020
Formatı: 70x100 1/16. Ofset çapı
Həcmi: 64
Sifariş № 325

**YUNESKO Banqkok Ofisi**
**Təhsil üzrə Asiya və Sakit Okean Regional Bürosu**

Mom Luang Pin Malakul Centenary Binası
920 Sukhumvit yolu, Prakanong, Klongtoey
Banqkok 10110, Tailand
Email: appeal.bgk@unesco.org
Website:  www.unesco.org/bangkok
Tel: +66-2-3910577 Faks: +66-2-3910866